

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 yanvar 2026-cı il, cümə axşamı
№ 012 (7079)
Qiyməti 60 qəpik


# Geosiyasi reallığın etirafı...



Bax səh. 4

## İlham Əliyevin fikirlərinə əlavə etmək mümkün deyil, sadəcə, onun dediklərini təkrar etmək olar



## Donald Tramp: Sizi Sülh Şurasına dəvət etməkdən böyük şərəf duyuram

### ABŞ Prezidenti İlham Əliyevə məktub ünvanlayıb

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampdan Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident!

Sizi - Azərbaycan Respublikasının Prezidentini Yaxın Şərqdə sülhü möhkəmləndirmək üçün, eyni zamanda, qlobal münaqişənin həll olunmasına yeni yanaşma üsuluna qədəm qoymaq yolunda son dərəcə mühüm əhəmiyyət daşıyan tarixi və möhtəşəm səyimizə qoşulmağa dəvət etməkdən böyük şərəf duyuram.

Mən 2025-ci il sentyabrın 29-da Qəzza münaqişəsinə son qoymaq üçün əhatəli plan elan etdim. Bu, Ərəb dünyası, İsrail və Avropa da daxil olmaqla, bütün dünya liderləri və əsas dövlət başçıları tərəfindən sürətlə qəbul edilən 20 bəndlik fövqəladə yol xəritəsidir. Həmin planın davamı olaraq, noyabrın 17-də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 2803 saylı qətnaməni böyük səs çoxluğu ilə qəbul edərək, bu baxışı alqışladı və dəstəklədi.

İndi isə artıq bütün bu xəyalları reallığa çevirməyin vaxtıdır. Planın mərkəzində indiyədək formalaşdırılmış ən təsirli və ən nəticəyönlü Sülh Şurası dayanır. Bu Şura yeni beynəlxalq təşkilat və Keçid İdarəetmə Administrasiyası kimi təsis ediləcək.

Bizim səylərimiz nümunə göstərməyə hazır olan, yeni nəsillər üçün təhlükəsiz və çiçəklənən gələcəyə parlaq şəkildə sərmayə yatıranlara nəsib olan bir şərəfi - daimi sülhün qurulması kimi nəcib məsuliyyəti çiyinlərinə götürmək istəyən seçilmiş ölkələr qrupunu bir araya gətirəcəkdir. Yaxın gələcəkdə əksəriyyəti yüksək hörmətə sahib dünya liderləri olan möhtəşəm və etibarlı tərəfdaşlarımızı bir araya gətirəcəyik.

Şuranın Sədri kimi, Azərbaycan Respublikasını təsisçi üzv dövlət qismində qoşulmağa və Sizin təmsilçiliyinizlə Sülh Şurasının Nizamnaməsinə tərəf olmağa rəsmi şəkildə dəvət edirəm. Bu Şura bənzərsiz bir qurum olacaq - indiyədək buna oxşar heç bir qurum mövcud olmayıb! Hər bir üzv dövlət onun adından iclaslarda iştirak etmək və təmsil olunmaq üçün səlahiyyətli nümayəndə təyin edə bilər. Əlavədə əhatəli plan və hazırda imzalanma və ratifikasiya üçün açıq olan Şuranın Nizamnaməsi təqdim olunur.

Gələcək illərdə dünyada dayanıqlı sülhün, rifahın və hamı üçün qüdrətin bərqərar olunması məqsədi naminə Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm.

**Hörmətlə və ən xoş arzularla, Mən,**
**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının**
**Prezidenti**

## İlham Əliyev: Mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir

Bax səh. 3

## Avrasiyada yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsi

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib. Tədbirdə Azərbaycan və daha geniş bölgə üçün regional rifahın təmin edilməsi, iqtisadi imkanların yaradılması mövzusunda Azərbaycan rəhbərliyi ilə müzakirələr aparılıb. Sualları cavablandıran Prezident İlham

Bax səh. 5



Bax səh. 5

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər

## Azad ərazilərdə iqtisadi fəallıq artır

Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin icrası, "yaşıl texnologiya"ların tətbiqi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi regionun biznes cəlbediciliyini artırıb və buradakı zəngin iqtisadi potensialdan istifadə olunmasına geniş imkanlar yaradıb. Hazırda bəhs olunan ərazilərdə rahat yaşayış məntəqələrinin salınması, genişmiqyallı infrastruktur quruculuğu ilə paralel şəkildə, məqsədyönlü iqtisadi reinteqrasiya tədbirləri həyata keçirilir. Bu siyasətin davamı olaraq Prezident

Bax səh. 6

## Məqsədimiz budur...

Bax səh. 4

## Xankəndiyə ilk köç...

Bax səh. 6

## Suriyada atəşkəs...





Bax səh. 7

# Azərbaycan Prezidenti Davosda bir sıra görüşlər keçirib












Prezident İlham Əliyev Davosda bir neçə ölkənin dövlət və hökumət başçısı və dünyanın tanınmış şirkətlərinin rəhbərləri ilə görüşlər keçirib. Dövlətimizin başçısı yanvarın 20-də Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə söhbəti zamanı Azərbaycan və Finlandiya prezidentlərinin əvvəlki görüşləri məmnunluqla xatırlanıb, həmin görüşlər zamanı ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığı vurğulanıb. Görüşdə regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb, "Nordic-Baltic Eight" qrupuna üzv ölkələrlə Azərbaycan arasında əməkdaşlığın perspektivlərinə toxunulub. Eyni zamanda, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişaf perspektivləri qeyd edilib.

Azərbaycanın dövlət başçısının İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşü zamanı iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Prezident İlham Əliyevin yanvarın 20-də Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani ilə görüşündə əməkdaşlığın bir çox istiqamətlər üzrə, o cümlədən iqtisadi-ticari müstəvidə inkişafı üçün geniş potensialın olduğu vurğulanıb. ARDNŞ tərəfindən Azərbaycan qazının Suriyaya çatdırılması vasitəsilə bu ölkənin enerji təchizatının bərpası işində ölkələrimizin uğurlu əməkdaşlığı qeyd edilib.

Yanvarın 20-də Prezident İlham Əliyev dünyanın aparıcı qlobal maliyyə institutlarından biri olan Amerika Birləşmiş Ştatlarının "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon ilə görüşüb. Dövlətimizin başçısı Azərbaycan Respublikası Dövlət Neft Fondu və ölkəmizin digər qurumları ilə "J.P. Morgan" arasında mövcud əməkdaşlıq əlaqələrinin əhəmiyyətinə toxunaraq, bunun uzunmüddətli xarakter daşıdığını və qarşılıqlı etimada əsaslandığını vurğulayıb.

Azərbaycan Prezidentinin Davosda aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşündə isə Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "BlackRock" arasında mövcud əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Görüşün sonunda Azərbaycan Prezidentinin iştirakı ilə niyyət protokolunun mübadiləsi mərasimi olub.

Prezident İlham Əliyev yanvarın 20-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə də görüşüb. Söhbət zamanı ölkəmizlə AYİB arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olundu, bankın Azərbaycanda bir sıra uğurlu layihələr icra etdiyi bildirilib.

Prezident İlham Əliyev yanvarın 21-də Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski ilə görüşüb. Söhbət zamanı "Brookfield Asset Management"in real aktivlərə yönəlmiş qlobal investisiya fəaliyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə investisiya baxımından maraq doğuran sahələr və mümkün layihələr barədə fikir mübadiləsi aparılıb. Görüş çərçivəsində ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolu imzalanıb. ARDNF-nin "Brookfield" tərəfindən idarə olunan fondlara və birgə investisiya layihələrinə 3-4 il müddətində ümumilikdə 1,4 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının dəyərləndirilməsi planlaşdırılır.

Prezident İlham Əliyev Çex Respublikasının Baş naziri Andrey Babişlə ilə də görüşüb. Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, maşınqayırma, nəqliyyat və digər sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Münasibətlərimizin dərinləşdirilməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunulub.

Azərbaycan Prezidentinin Davosda dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüşü zamanı ölkəmizdə mövcud əlverişli investisiya mühitinin xarici sərmayədarlar üçün də cəlbedici olduğu vurğulanıb.

Prezident İlham Əliyevin yanvarın 21-də Davosda İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla görüşü baş tutub. Söhbət zamanı Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulanıb, iqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib.

# Azərbaycan Prezidenti Donald Trampa minnətdarlıq edib

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa



Hörmətli cənab Prezident!

Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycan Respublikasını dəvət etdiyiniz məktuba görə Sizə minnətdaram.

Bu dəvəti Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığının, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edirəm.

Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq.

İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək.

Sizin müdrik liderliyinizə və sülh quruculuğu səylərinizə səmimi təqdirimi qəbul edin. Sizə Sülh Şurasının Sədri vəzifənizdə uğurlar arzu edirəm.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Davos, 21 yanvar 2026-cı il**

# Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib.

AZƏRTAC həmin görüşdən hazırlanan materialı təqdim edir.

Azərbaycana həmişə məmnunluqla səfər etdiklərini deyən qonaqlar qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Onlar 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə Prezident İlham Əliyevə təqdim olunacağını bildirərək, bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcəyini dedilər, həmin tədbirdə fəxri qonaq qismində iştirak üçün dəvət məktubunu Prezident İlham Əliyevə təqdim etməkdən şərəf hissi duyduqlarını vurğuladılar.

Qeyd olundu ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi, eyni zamanda, Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvlərinin ötən il dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərarın qəbul edildiyi bildirildi.

**Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam:** Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün Zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir.

Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın həqiqətən buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə həqiqətən təşəkkürümüzü bildiririk.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişel: Hesab edirəm ki, Sizin Ermənistanla birgə icra etdiyiniz sülh razılaşması dünya ölkələri üçün çox güclü bir siqnaldır. Yəni çətinliklərə, keçmiş və indiki iztirablara baxmayaraq, gələcəyə kiçik də olsa, nikbinliklə və ümidlə baxmaq üçün ortaq iradə var. Bu da bizim təşviq və müdafiə etmək istədiyimiz dəyərlərə bağlıdır. Çünki biz hesab edirik ki, bu dəyərlər gələcəkdə daha çox təşviq olunmalıdır. Mükafatla bağlı verdiyimiz qərarla biz bu sülh razılaşmasının reallığa çevrilməsi üçün Sizin göstərdiyiniz bütün səylərə dəstək olduğumuzu nümayiş etdirmək, region və Cənubi Qafqaz, həmçinin daha geniş bölgə üçün müsbət ümidlər və perspektivlər arzulamaq istəyirik.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Faki: Düşünürəm ki, sülh və sabitlik çox zəruridir. Fikrimcə, baxışlarınız və rəhbərlik keyfiyyətləriniz çox yüksək dəyərləndirilir. Münsiflər heyətinin üzvü kimi Sizi təbrik etmək istəyirəm və görüşümüzdə iştirak etmək üçün razılıq verdiyinizə, bütün dünyaya və region xalqlarına sülhün və cəsarətin nədən ibarət olduğunu göstərdiyinizə görə minnətdaram.

Sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunan Prezident İlham Əliyev dedi ki, işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycan dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirib. Prezident İlham Əliyev sülh razılaşmasının məhz Azərbaycan tərəfindən hazırlanaraq Ermənistana təqdim olunduğunu və bu istiqamətdə səylərin davam etdiriləcəyini diqqətə çatdırdı.

**Prezident İlham Əliyev:** "Sizin də düzgün qeyd etdiyiniz kimi, sülh bütün regiona sabitlik və firavanlıq gətirəcək. Yaxın keçmişə nəzər salsaq, bizim məsələmizin bir növ nadir olduğunu görərik. Yaxın keçmiş deyərkən, son onilliyi nəzərdə tuturam. Son qanlı döyüşlərdən sülhə gedən yol iki il zaman apardı. Əziyyətə və qurbanlara baxmayaraq, biz sülhün birdəfəlik bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirdik və artıq bunun bəhrəsini görürük".

Dövlətimizin başçısı cəmi beş ildir sülh şəraitində yaşadığımızı qeyd edərək vurğuladı ki, son aylar sülh artıq ticarət sahəsi də daxil olmaqla, praktik müstəviyə keçib. Azərbaycan Prezidenti bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqton görüşündə sülh gündəliyi ilə bağlı əldə olunmuş razılaşmaların tarixi əhəmiyyətini qeyd etdi, bu məsələdə ABŞ Prezidenti Donald Trampın səylərini yüksək qiymətləndirdi.

**Prezident İlham Əliyev:** "Sülh şəraitində yaşamağa öyrəşirik. İnanın mənə, bu, xoş hissdir. Hiss edirsiniz ki, müharibə artıq yoxdur, əlavə qurbanlar yoxdur, qan artıq tökülmür. Siz xalq, ölkə və inkişaf, rifah, sabitlik üçün daha çox işlər görə bilərsiniz. Yenə də düşünürəm ki, Azərbaycan ilə Ermənistan arasında əldə olunmuş razılaşma və bu cür mötəbər şəxslərdən ibarət qrupun verdiyi qiymət həqiqətən göstərir ki, sülhə nail olmaq üçün sizdə güclü siyasi iradə lazımdır. Bunu ürəkdən arzulamalısınız. Bunu sözdə yox, əməldə etməlisiniz. Bu cür səylər dəyərləndirildiyi halda Siz daha da həvəslənirsiniz və qlobal xəritədə insanların hələ də müharibədə öldüyü digər yerlərə də sülh mesajını verirsiniz".

"Zayed İnsan Qardaşlığı Mükafatı"ndan danışan dövlətimizin başçısı bildirdi ki, mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın xatirəsinə dünyada böyük rəğbət bəslənilir. Prezident İlham Əliyev, eyni zamanda, onun xələfi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla qardaşlıq münasibətlərinin olduğunu qeyd etdi. Dövlətimizin başçısı mükafata layiq görülməsinin onun üçün ikiqat şərəf olduğunu qeyd edərək regionda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlərə göstərdikləri dəstəyə və onun fəaliyyətinə verdikləri qiymətə görə, həmçinin Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxinə və Roma Papasına minnətdarlığını çatdırmağı xahiş etdi.

# İlham Əliyev: Mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir




## Dövlətimizin başçısı Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında iştirak edib

Yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclası keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

**Moderator:** 2026-cı ilin Dünya İqtisadi Forumuna və "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" adlanan sessiyaya xoş gəlmisiniz. Burada müzakirə apardığımız zaman Qərbdən Şərqə doğru rəqabət aparan maraqlar və Qafqaz ilə Mərkəzi Asiyada təsir və gücün tarazlığı ilə səciyyələnən vəziyyət müşahidə edilir. Artan rəqabət fonunda geniş infrastruktur planları və formalaşan ticarət dəhlizləri göz qarşısındadır. Region genişlənən həmin marşrutların əksər hissəsindən necə yararlana bilər və onlar üçün öz rolunu necə gücləndirə bilər? Bu gün sessiyada biz həmin mövzuları müzakirə edəcəyik və mən çıxış edəcək şəxsləri böyük şərəf hissi ilə təqdim edirəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Serbiyanın Prezidenti Aleksandar Vuçiç, Türkiyədən "Limak Holdinq"in İdarə Heyətinin sədri Ebru Özdəmir və Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan. Mənim adım Saşa Vakulinadır. Mən "Euronews" televiziya kanalının Avropa üzrə müxbiriyəm.

Bu gün keçirilən sessiyada aparıcı olmaqdan və Sizə qoşulmaqdan böyük şərəf hissi duyuram. Mən sessiyanın əvvəlində, icazənizlə, açılış edim və təfərrüatlar haqqında danışım. Azərbaycan və Ermənistan iki ölkənin, eləcə də bütöv regionun kursunu və gələcəyini dəyişən, onilliklər boyu yaşanılan faciələrdən sonra tarixi sülh razılaşmasını hazırladılar. Hazırda biz qlobal quruluşun da sürətlə dəyişdiyinin şahidiyik. Bilirsiniz, tarixin ağrılı səhifəsini bağlamaq üçün nə qədər səylər göstərildi. Mən Prezident Əliyev və Prezident Xaçaturyandan soruşmaq istərdim: Hazırda Siz gələcəyi necə görürsünüz? Gələcəkdə bizi nə gözləyir? Sizin hər ikinizin bu sessiyada iştirakı artıq özü böyük mesajdır.

**Prezident İlham Əliyev:** Bəli, siz tam haqlısınız. Ötən ilin avqustunda hər iki tərəf sülh sazişini paraflamaqla və beləliklə, üç onillikdən artıq çəkən müharibə və qan tökməyə son qoymaqla tarixi nailiyyət əldə olundu. Həmin sülh sazişinin nadirliyi ondan ibarətdir ki, o, son qanlı toqquşmadan sonra iki ildən az müddətdə paraflandı. Beləliklə, bu göstərir ki, əgər hər iki tərəfin güclü siyasi iradəsi, sülhə sadiqliyi olarsa, onda siz kifayət qədər qısa müddət ərzində barışıq əldə edə bilərsiniz. Paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir. Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Olduqca mühüm neft məhsullarının birinci hissəsi Azərbaycandan Ermənistana göndərildi və bu, qiymətlərin aşağı düşməsinə imkan yaratdı.

Beləliklə, iki və ya üç il əvvəl belə addımı tamamilə təsəvvür etmək olmazdı. Lakin bu gün o, artıq reallıqdır. Düşünürəm ki, heç nə bu prosesə müdaxilə edə bilməz. Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək. Lakin mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. O, vaxtilə çox dərin ədavəti olmuş ölkələrin əməkdaşlıq mərhələsinə gəlib çıxmasının nümunəsini özündə əks etdirir.

Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan Azərbaycan Prezidenti İlham Əliyevin "gələcək bizdən asılıdır" fikri ilə tam razı olduğunu söyləyərək qeyd edib ki, ölkələrimizin liderləri öz siyasi iradələrini qətiyyətlə nümayiş etdirirlər: "Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, biz siyasi qətiyyəti sülh üçün nümayiş etdirdik ki, artıq bundan sonra əməli tədbirlər sülhü sübut etsin, təsdiq etsin. Biz 30 ildir bunu görməmişdik. Amma indi isə biz sülh və əmin-amanlıq şəraitində yaşayırıq. Bu isə həqiqətən də inanılmaz hadisədir".

Artıq Azərbaycandan Ermənistana Gürcüstan ərazisi ilə malların nəql edildiyini xatırladan V.Xaçaturyan bu yüklərin birbaşa olaraq iki ölkənin ərazisindən keçəcəyinə əminliyini bildirib.

Ermənistan Prezidenti deyib: Cənab İlham Əliyevə də minnətdaram, görülən işləri təqdir edirik. Bu gün və yaxud dünən idi səhv etmirəmsə, Prezident Əliyev qeyd etdi ki, biz sülh və əmin-amanlıq şəraitində yaşamağı öyrənməliyik. İnandırım ki, bizim üçün adi vəziyyət deyil, çünki bu sənədlər imzalanmamışdan əvvəl buna öyrəşməmişdik. Hər gün oyanırdıq ki, sərhəddə görəsən nələr baş verib, atışmalar davam edirmi? Bu, bizim üçün hər zaman stres idi. İndi isə mən sizi bir daha əmin etmək istəyirəm ki, biz bu keçmişimizi unudub, gərək artıq konkret layihələr həyata keçirək. Biz uğur qazanacağıq, inanırıq. Bizim sazişlərimiz çox konkret prinsiplərə əsaslanıb. Bəli, ölkə olaraq biz bir-birimizin ərazi bütövlüyünə, suverenliyinə, yurisdiksiyalarına hörmət edirik, bunlar rəhbər prinsiplərdir. Bəli, sərhədlərimiz bir gün açılacaq və sadəcə, bir neçə il bundan əvvəl siyasi iradə bu səviyyədə deyildi. Eləcə də sıravi işgüzar səfərlər olacaq. Sıravi vətəndaşlarımız sərhədləri rahat keçərək münasibətlər quracaqlar. Biz bu fürsətlərdən faydalanacağıq və bu əməkdaşlıq nəticəsində Cənubi Qafqaz bütün dünya üçün çox əlverişli regiona çevriləcək.

"Azərbaycan Prezidenti cənab Əliyevə təşəkkür edirəm və bizim Baş nazirimizə də təşəkkürümü bildirməliyəm. Hər iki rəhbərə nümayiş etdirdikləri siyasi iradəyə görə minnətdaram", - deyən V.Xaçaturyan diqqətə çatdırıb ki, burada bir məqsəd var, o da sülhdür. Sülh də olacaqdır. "Üzr istəyirəm, bir daha təkrar edirəm ki, məsələ hakimiyyətdə qalmaq deyil, sülhə nail olmaqdır. Çünki illər boyu müəyyən siyasi səbəblər ucbatından sülh prosesi yubanırdı, ancaq danışıqlar davam edirdi və ortalıqda heç bir nəticə yox idi. Elə oldu ki, artıq iki ölkənin rəhbərləri ümumi prinsiplər üzərində razılığa gəldilər", - deyə o əlavə edib.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç "Serbiyanın Avropa ilə Asiya arasında körpü rolunu necə görürsünüz?" sualına cavabında müasir dünyada baş verən hadisələr fonunda ölkələrin bir-biri ilə əməkdaşlıq etməyinin vacibliyindən danışaraq deyib: Qafqaz ölkələri Avropa ilə Asiya arasında vasitəçi, eyni zamanda, qovşaq ölkələrdir. Əslində, biz hər üçümüz ölkə olaraq Avropa siyasi icmasının üzvüyük.

İnvestisiya yatırılması baxımından hansı strategiyaların rəqabəti gücləndirə biləcəyi ilə bağlı suala cavabında Türkiyənin "Limak Holdinq" şirkətinin İdarə Heyətinin sədri Ebru Özdemir bildirib ki, hər bir ölkəyə investisiya uzunmüddətli sabitlik, sülh və əmin-amanlıq olduqda yatırılır. O qeyd edib ki, sabitlik olmadıqda heç kim ölkəyə investisiya qoymayacaq.

Azərbaycan və Ermənistan prezidentlərinin tədbirdə iştirakına toxunan E.Özdemir diqqətə çatdırıb ki, sülh və əmin-amanlığın uzunmüddətli olması investorların ölkəyə gələcəyinə dəlalət edir. "TRIPP-lə bağlı imzalanmış sazişi də oxumuşam, kifayət qədər təsbit edilmiş prinsiplər var", - deyən "Limak Holdinq"in rəhbəri diqqətə çatdırıb ki, investisiyalar məhz bu kimi sazişlərin sayəsində cəlb olunacaq. O, həmçinin qeyd edib ki, Orta Dəhlizlə bağlı da daha çox iş görülə bilər.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç E.Özdemirin fikrinə əlavə olaraq bildirib ki, bu gün sülh, sabitlik heç zaman olmadığı qədər vacibdir. O, təəssüflə bildirib ki, müasir dünyada müəyyən prinsiplərə riayət edilmir. Heç kəs çoxtərəflilik prinsiplərinə hörmət etmir, bu isə böyük bir xətadır, keçmişdə yol verilən səhvdir.

**Moderator:** Mən bu sualı Prezident Əliyevə ünvanlamaq istərdim. Siz necə düşünürsünüz? Siz Prezident Vuçiçin dediyi kimi, bu həlli necə görürsünüz? Vəziyyətdən necə çıxmaq olar? Dünyada hazırkı şokların təsirini necə yumşaltmağa çalışırsınız? Çoxtərəfliliyin hazırkı forması və siması nəinki dəyişir, bununla belə, o, ümumiyyətlə, yaxşı işləmir.

**Prezident İlham Əliyev:** Düşünürəm ki, hər bir şey öz əllərimizdədir. O, sizin gündəliyinizdən asılıdır. O, sizin planınızdan, gələcək üçün baxışlarınızdan asılıdır. Ermənistanla sülhə gəlincə və ondan əvvəl mövcud olmuş 30 illik münaqişəyə toxunduqda, biz bir ölkə, bir xalq kimi çox ağır vaxtlar yaşamışıq: ərazilərin itirilməsini, milyonlarla insanın evsiz qalmasını və məcburi köçkünə çevrilməsini görmüşük. Lakin ümidimizi itirmədik. Ədaləti, beynəlxalq hüququ və suverenliyimizi bərpa etməkdə cəsarətimizi itirmədik. Bu, bizdən 30 il aldı. Həmin vaxt, 30, 20 və 10 il əvvəl və indi beynəlxalq təsisatların davranışı dəyişmədi. Biz dəyişdik bunları. Biz kiminsə gəlib bizim üçün hər bir şeyi düzəldəcəyinə inanmağı dayandırdıq. Beynəlxalq vasitəçiliklə bağlı bütün ümidlərimiz tam alt-üst oldu.

Ali beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ərazilərimizdən erməni qoşunlarının çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Onlar kağız üzərində qaldı. ATƏT və digər beynəlxalq təsisatlar çoxsaylı qətnamələr qəbul etdilər. Onların heç biri biz vəziyyəti öz əlimizə alanadək həyata keçirilmədi. Biz özümüz bunu etdik. Biz ədaləti, beynəlxalq hüququ, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdik, sonra isə sülhə nail olduq.

Biz dayandıq. Otuz il əziyyət çəkmiş ölkənin lideri olaraq lazımi vaxtda dayanmaq olduqca məsuliyyətli və vacib qərar idi. Biz davam edə bilərdik. Mən sizinlə və burada əyləşənlərlə çox açıq danışmaq istəyirəm. Ancaq belə olduğu halda, bu sonsuz müharibələr daha çox əziyyət və qurbanlar ilə nəticələnəcəkdi. Beləliklə, müharibə heç vaxt bitməyəcəkdi. Kimsə bunu dayandırmalı idi və biz buna son qoymaq qərarına gəldik.

Bəli, həmin fəsli bağlamaq və sülh üçün imkanları görməklə bağlı qərar Azərbaycan və Ermənistan liderlərinin birgə qərarı idi. Dediyim kimi, artıq bu, rekord bir sürətlə baş verdi - müharibədən, 2023-cü ilin sentyabr ayının ciddi hərbi toqquşmasından 2025-ci ilin avqust ayınadək. Həmin vaxt mən və Ermənistanın Baş naziri bəyannaməni imzaladıq və sülh sazişi Prezident Trampın iştirakı ilə paraflandı. O isə həmin bəyannaməni şahid kimi imzaladı. Dediyim kimi, biz həmin müharibəyə dünyanın bir nömrəli ofisində son qoyduq.

Biz beynəlxalq təsisatlara arxalanmamalıyıq. Mən Aleksandar ilə razılaşıram ki, bu gün vəziyyət heç vaxt olmadığı qədər mürəkkəbdir. Ancaq mən onun bədbinliyini bölüşmürəm, çünki vəziyyət nəzarətə götürülürsə, milli maraqlara və rəhbərlik etdiyin xalqa bağlılıq varsa, o zaman uğura nail olmaq mümkündür.

O ki qaldı, çoxtərəflilik, birtərəflilik və proteksionizmə, biz bütün bunların iflasa uğradığını görürük. Ümumdünya Ticarət Təşkilatı iflic olub. Yeri gəlmişkən, 30 il ərzində edilmiş dəvətlərə rəğmən biz Ümumdünya Ticarət Təşkilatına qoşulmadıq, çünki öz iqtisadi suverenliyimizi qorumaq istəyirdik. Biz siyasi suverenliyə malik olmaqla yanaşı, müxtəlif tərəflərlə yaxşı münasibət saxlamaq istəyirik.

Biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq. Eyni zamanda, Çin ilə hərtərəfli strateji tərəfdaşlıq sazişinə malikik və ABŞ ilə Strateji tərəfdaşlıq nizamnaməsini müzakirə edirik. Bütün bunlar mümkündür və bir-biri ilə ziddiyyət təşkil etmir. Ölkə və onun gələcəyi ilə bağlı aydın baxışa malik olduqda, gücə sahib olduqda və vahid mövqedən çıxış edən cəmiyyətin olduğu təqdirdə haqqınızda və gördüyünüz işlər barəsində kimin nə dediyinin və nə məqalə dərc etdirməsinin heç bir əhəmiyyəti yoxdur.

Beləliklə, mən daha nikbinəm, xüsusilə də bizim Ermənistanla bağlı məsələmizdə. Otuz il davam etmiş müharibə və qan tökülməsindən sonra həqiqi sülhün bərqərar olması hər halda misilsiz bir hadisədir.

Moderatorun sualını cavablandıran Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan bildirib ki, Ermənistan ilə Azərbaycanın siyasi rəhbərliyi prinsipial razılığa gəlməsəydilər, müharibə davam edəcəkdi: Cənab Prezident İlham Əliyevlə razıyam ki, əks təqdirdə, bu müharibə davam edəcəkdi. Uzun-uzadı davam edəcəkdi. Yəni heç bir gələcək vəd etməyən hadisə olacaqdı. Ona görə də mən müharibəyə, insan itkilərinə gətirib çıxaran heç bir siyasi yanaşmanı qəbul etmirəm.

Ermənistan Prezidenti qeyd edib ki, hər iki ölkə lideri sülh və xalqlarımızın rifahı yolunu seçdi. Bu isə ən ümdə məsələdir. "Mən nikbinəm ki, biz uğur qazanacağıq", - deyən V.Xaçaturyan bildirib ki, iki ölkə arasında birgə iqtisadi və mədəni layihələr olacaq. Bu məqamla bağlı presedent də var. İki ölkənin vətəndaş cəmiyyətlərinin nümayəndələri artıq görüşüblər. Yaxın gələcəkdə işgüzar insanlar, biznes icmaları da görüşəcəklər. O, həmçinin deyib: Artıq Ermənistanda insanlar avtomobillərinə Azərbaycan benzinini doldururlar. Əvvəllər bu məsələ ilə bağlı düşmənçilik mövqeyi sərgilənirdi. Amma bu, yeni reallıqlardır.

Türkiyənin "Limak Holdinq" şirkətinin İdarə Heyətinin sədri Ebru Özdemir regionda yaşanan proseslərdən söz açaraq bildirib ki, Azərbaycan ilə Ermənistan arasında çox müsbət işlər görülür. Türkiyə də bu mənada vasitəçi rolu oynayacaq, sərhədlər açılacaq. O deyib: "Azərbaycan bizim qardaş, dost ölkəmizdir. Gürcüstanı da qeyd etməliyik. Bu paneldə biz daha çox regional investisiyalardan danışırıq. Nələri əvvəllər etməmişik? Nələri hazırda həyata keçirməliyik? Nələr daha çox həyata keçirilə bilər? Sülh, sabitlik varsa, niyə də investisiya gəlməsin?".

**Moderator:** Çox maraqlı dinamikadır. Avrasiya regionu və burada təmsil etdiyiniz ölkələr region naminə əməkdaşlığı gücləndirdiyi bir vaxtda, sizin də qeyd etdiyiniz kimi, qlobal geosiyasi mənzərə tamamilə fərqli görünür. Burada parçalanma nəzərə çarpır. Yekun şərh olaraq hər birinizin fikrini öyrənmək istərdim. Həmin parçalanan və həssas qlobal mənzərədə Avrasiyanı necə görürsünüz? Prezident Əliyev, buyurun.

**Prezident İlham Əliyev:** Avrasiya çox böyük bir coğrafi məkandır. Biz öz regionumuzu, bilavasitə qonşularımızı düşünürük. Şadam ki, müstəqillik illərində biz bütün qonşularımızla çox yaxın işgüzar münasibətlər qura bilmişik. Burada istisna Ermənistandır və bunun səbəbləri hər kəsə məlumdur. Lakin de-fakto sülh bərqərar olduğu üçün biz iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlamışıq. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Bizə artıq Ermənistandan Rusiyaya yüklərin nəql edilməsi ilə bağlı müraciət daxil olub. Yəni biz de-fakto birtərəfli qaydada dəhlizləri açdıq. Bəli, bu gün bu daşımalar Gürcüstan vasitəsilə həyata keçirilir. Ancaq bir gün bu, Ermənistan ərazisindən həyata keçiriləcək. Bir gün Ermənistana məxsus yüklər birbaşa Azərbaycan vasitəsilə daşınacaq və həmin gün çox da uzaqda deyil.

Bizim üçün qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq. Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir.

Ölkə olaraq biz hər zaman diqqətimizi regional gündəliyimizə yönəldirik. Biz regionda istədiyimizə nail ola bilmiriksə, qlobal məqsədlərdən söhbət gedə bilməz. Ancaq bu gün biz paralel şəkildə gedən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə yaxınlaşmasından bəhs edirik. Bu, mütləq paralel şəkildə və eyni vaxtda Türkiyə ilə Ermənistan və Azərbaycan ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnəcək. Bununla da biz geniş coğrafi ərazidə, Avrasiyanın bir hissəsində bağlantı, enerji təhlükəsizliyi, sülh və sabitlik baxımından olduqca əhəmiyyətli addım atırıq. Bu, uzun illər davam edən müharibələrin əməkdaşlığa və tərəfdaşlığa çevrilməsinin nümunəsidir.

Sonra Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan bildirib ki, əslində, Prezident İlham Əliyevdən sonra nəsə demək çox çətindir.

"Çünki Prezidentin söylədiklərini təkrar etməliyəm. Prezident İlham Əliyevin söylədiyi fikirlər bizim fikirlərimizlə, prinsiplərimizlə üst-üstə düşür. İstər Orta Dəhliz marşrutu olsun, istər Cənubi Qafqazın yeni logistika imkanları getdikcə daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Odur ki, bizim regionumuzun əhəmiyyəti də istər Avropa İttifaqı, Avropa ölkələri üçün ayrı-ayrılıqda, həmçinin Uzaq Şərqdə getdikcə artmaqdadır", - deyən Ermənistan Prezidenti sonda vurğulayıb ki, Prezident İlham Əliyevin də söylədiyi kimi, uzunmüddətli və davamlı sülh olmalıdır.

"Mən Cənubi Qafqazdakı dostlarıma görə çox sevinirəm", - deyən Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycanın Serbiyaya yatırdığı sərmayədən söz açıb. Həmçinin bildirib ki, Belqradla Bakı, eləcə də Tbilisi ilə birbaşa aviareys nəzərdə tutulur, Ermənistanla da belə birbaşa uçuşlar təşkil edilə bilər. "Beləliklə, biz gələcəkdə Qərblə yanaşı, Şərqə doğru da əməkdaşlığımızı genişləndirəcəyik, dostlarımızla münasibətlərimizi gücləndirəcəyik", - deyə o əlavə edib.

Serbiya Prezidenti isə bildirib ki, Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: "O, həqiqətən də müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

# Geosiyasi reallığın etirafı...

## İlham Əliyevin fikirlərinə əlavə etmək mümkün deyil, sadəcə, onun dediklərini təkrar etmək olar

### Ermənistan prezidenti reallığı etiraf edir

Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda formalaşan geosiyasi mənzərə region üçün ağır nəticələr doğurdu. Ermənistanın beynəlxalq hüququ açıq şəkildə tapdalayan işğal və təcavüz siyasəti, separatizmi dövlət ideologiyasına çevirməsi, reallıqdan uzaq miflər üzərində gələcək qurmağa çalışması regionu təxminən 30 il geriyə atdı. Bu dövr ərzində Azərbaycan dəfələrlə sülhə, danışıqlara, müharibəsiz tənzimləməyə çağırış etdi, lakin Ermənistan siyasi iradə nümayiş etdirmədi, destruktiv mövqedən geri çəkilmədi.

Nəticədə, Cənubi Qafqaz 30 il ərzində inkişaf imkanlarını itirdi, regional əməkdaşlıq iflic oldu, təhlükəsizlik riskləri dərinləşdi. Ermənistanın forpost siyasəti həm regionun, həm də öz xalqının maraqlarına zidd oldu. Lakin tarix göstərdi ki, reallıqdan qaçmaq mümkün deyil.

Nəhayət, 30 illik ədalətsizliyə Azərbaycan öz gücü, siyasi iradəsi və beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə son qoydu. 2020-ci ildən sonra formalaşan yeni reallıqlar Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və inkişafın əsasını qoydu. Prezident İlham Əliyevin liderlik fenomeni sayəsində Azərbaycan yalnız müharibədə deyil, postmünaqişə dövründə də qalib tərəf olduğunu sübut etdi. Bu gün artıq Ermənistan da bu reallığı dərk etməyə və qəbul etməyə məcburdur. Onlar anlayırlar ki, sülhsüz gələcək mümkün deyil.

### Ermənistanın iflası və sülhə məcbur qalması...

Ermənistan cəmiyyəti uzun illər müstəqil dövlət kimi deyil, xarici mərkəzlərin idarəsi altında olan forpostu kimi formalaşdırıldı. Bu ölkə 30 il ərzində yalnız verilən tapşırıqları yerinə yetirdi, regional maraqları deyil, kənar qüvvələrin gündəmini əsas götürdü. İşğalçılıq, aqressiv ritorika və antagonistik siyasət Ermənistanın özünü dalana dirədi. Onlar anlamadılar ki, təcavüz nə təhlükəsizlik, nə də rifah gətirə bilər.




Müharibədən sonrakı dövrdə Prezident İlham Əliyev bu reallığı Ermənistana açıq və qəti şəkildə izah etdi. Azərbaycanın irəli sürdüyü sülh təşəbbüsləri, kommunikasiyaların açılması, regional layihələrə inteqrasiya çağırışları Ermənistan üçün də real xilas yolu kimi təqdim olundu. Bu yanaşma gücə deyil, məntiqə, uzunmüddətli perspektivə əsaslanırdı.

Azərbaycan Prezidenti dəfələrlə bəyan etdi ki, bölgədə qalıcı sülh olmadan inkişaf mümkün deyil. Bu gün Ermənistan rəhbərliyi faktiki olaraq bu mövqeni etiraf edir. Onlar anlayırlar ki, İlham Əliyevin yaratdığı siyasi çərçivədən kənara çıxmaq, alternativ gündəm formalaşdırmaq mümkün deyil. Ermənistan artıq etiraf etməyə məcburdur: Azərbaycan liderinin dediklərinə əlavə ediləcək arqument yoxdur. Ermənistan Prezidenti Vaaqn Xaçaturyan Davosda deyir: "Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, biz siyasi qətiyyəti sülh üçün nümayiş etdirdik ki, artıq bundan sonra əməli tədbirlər sülhü sübut etsin, təsdiq etsin. Biz 30 ildir bunu görməmişdik. Amma indi isə biz sülh və əmin-amanlıq şəraitində yaşayırıq. Bu isə həqiqətən də inanılmaz hadisədir"".

### Yeni regional nizamın memarı - Azərbaycan




Bu gün Prezident İlham Əliyev təkcə sülh təşəbbüslərinin müəllifi deyil, eyni zamanda Cənubi Qafqazın yeni gələcəyinin memarıdır. Bölgədə maraqların uzlaşdırılması, qarşılıqlı etimad mühitinin yaradılması, yeni əməkdaşlıq formatlarının təşkili Azərbaycanın irəli sürdüyü konseptual yanaşmanın nəticəsidir.

Postmünaqişə dövründə formalaşan siyasi arxitektura göstərir ki, Cənubi Qafqazda liderlik faktoru artıq mübahisə mövzusu deyil. Azərbaycan bu liderliyi həm hərbi, həm siyasi, həm də diplomatik müstəvidə təsdiqləyib. Ermənistan isə yeni situasiyaya heç bir əlavə dəyər qata bilmir.

Bütün yol xəritəsi, bütün siyasi konturlar, bütün strateji ştrixlər Azərbaycan tərəfindən müəyyənləşdirilib. Regional əməkdaşlığın formatı, nəqliyyat-kommunikasiya xətləri, təhlükəsizlik mexanizmləri Bakının iradəsi əsasında formalaşır. Ermənistanın rolu isə passiv müşahidəçi mövqeyindən irəli getmir. Bu reallıq bir daha təsdiqləyir ki, Cənubi Qafqazda gündəmi müəyyən edən tərəf Azərbaycandır. Prezident İlham Əliyevin sözü, fəaliyyəti bölgənin işıqlı gələcəyi üçün yol xəritəsidir - buna nə isə əlavə etmək olmaz, bunu yalnız təkrarlamaq olar. Ermənistan prezidentinin İlham Əliyev haqqında dedikləri yalnız bir məqamın yox, bütövlükdə geosiyasi reallığın etirafıdır. "İlham Əliyevin fikirlərinə əlavə etmək mümkün deyil, sadəcə, onun dediklərini təkrar etməliyəm..."

### İlham Əliyev - qlobal prosesləri idarə edən lider

Ermənistan rəhbərliyinin İlham Əliyevin dediklərinə əlavə edə bilməməsinin çox səbəbi var. Əsas səbəb isə odur ki, İlham Əliyev qlobal miqyaslı liderdir, qlobal prosesləri görür və onu Cənubi Qafqaza transformasiya edir. Prezident İlham Əliyev dünyada baş verən siyasi, iqtisadi və təhlükəsizlik proseslərini dərindən təhlil edir, onların Cənubi Qafqaza mümkün təsirlərini öncədən hesablayır. Mənfi təsirləri neytrallaşdırır, müsbət imkanları isə regionun inkişafına yönəldir.

Bu gün İlham Əliyev qlobal güc mərkəzlərinin maraqlarını Cənubi Qafqazda ustalıqla uzlaşdıran nadir liderlərdəndir. Şərqlə Qərbin maraqları məhz bu coğrafiyada toqquşmur, əksinə, uzlaşır. Yeni dünya nizamının konturları Cənubi Qafqazda cızılır və bu prosesin mərkəzində Azərbaycan dayanır. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, siyasi dialoq platformaları - bütün bu proseslər Azərbaycanın təşəbbüsü ilə reallaşır. Regionun qlobal sistemə inteqrasiyası İlham Əliyevin strateji baxışının nəticəsidir.

### Sülh, inkişaf və sabitlik...

Nəticə etibarilə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar təsadüfi deyil. Bu reallıqlar uzunmüddətli strateji düşüncənin, qəti siyasi iradənin və peşəkar liderliyin məntiqi nəticəsidir. Azərbaycan bu gün təkcə öz ərazi bütövlüyünü bərpa etmiş qalib dövlət deyil, eyni zamanda regionda sülhün və inkişafın əsas təminatçısıdır.

Ermənistan isə 30 illik yanlış siyasətin nəticələrini yaşayır və artıq alternativ yolunun olmadığını anlayır. Sülhə gedən yol Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi çərçivədən, strateji baxışından keçir. Bu çərçivə beynəlxalq hüquqa, qarşılıqlı maraqlara və gələcəyə hesablanmış yanaşmaya əsaslanır.

Yeni dünya nizamında Cənubi Qafqaz mühüm geosiyasi mərkəzə çevrilir. Bu mərkəzin aparıcı gücü isə Azərbaycandır. Prezident İlham Əliyev təkcə regionun deyil, qlobal proseslərin də memarlarından biri kimi tarixə düşür. Sülh, inkişaf və sabitlik aparılan uğurlu siyasətin əsas nəticəsidir.

*Pərviz SADAYOĞLU*

# Məqsədimiz budur...

## İlham Əliyev: Biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq

Azərbaycan Prezidenti Davosda "Euronews" televiziyasına müsahibə verib.

Cənubi Qafqazın aparıcı aktoru, regional lider və qlobal tərəfdaş kimi Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı mövqeyini daha da möhkəmləndirir. Ölkəmiz sülhün, sabitliyin və qlobal təhlükəsizlik arxitekturasının gücləndirilməsinin ardıcıl tərəfdarı kimi tanınır və bu istiqamətdə real addımlar atır. Azərbaycanın formalaşdırdığı bu siyasi model beynəlxalq platformalarda, o cümlədən Davos Dünya İqtisadi Forumunda da açıq şəkildə özünü büruzə verir. Bir çox dövlət başçılarının Prezident İlham Əliyevlə görüşə can atması, aparıcı beynəlxalq media qurumlarının dövlət başçısından müsahibə almaq təşəbbüsləri, müxtəlif ölkələri təmsil edən biznes və siyasi dairələrin Azərbaycan liderinin mövqelərinə xüsusi diqqət ayırması təsadüfi deyil.




**Yeni erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir...**

Prezident İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsində bildirib ki, biz elə bir vəziyyətlə üzləşirik ki, beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri üçün artıq mütləq görünmür. Buna görə strateji məqsədimiz milli maraqlar əsasında nəticələri əldə etməkdən ibarət idi və beynəlxalq hüquqa tam riayət edərək düzgün hesab etdiyimizi həyata keçirmək idi: "Gördüyümüz hər bir iş - istər siyasi inkişaf, istərsə də suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası beynəlxalq hüquqa və ümumi dəyərlərə uyğun idi. Beləliklə, qeyd etdiyiniz kimi, beynəlxalq münasibətlər bu gün yeni eraya qədəm qoyur. Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Buna görə o, bir daha göstərir ki, hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu".

**Cənubi Qafqaz yeni inkişaf mərhələsinə daxil olur**

Vurğulandığı kimi, Azərbaycan qlobal sülhün və beynəlxalq təhlükəsizliyin ardıcıl tərəfdarlarından biri kimi çıxış edir. Postmüharibə dövründə qalib dövlət olmasına baxmayaraq, revanşizmə deyil, sülhə və əməkdaşlığa üstünlük verməsi bunun bariz sübutudur. Rəsmi Bakı bölgədə davamlı sülhün təmin olunması üçün real təşəbbüslərlə çıxış edir və konstruktiv mövqe nümayiş etdirir. Sülh təşəbbüsləri ilə yanaşı, İrəvana humanitar yüklərin öz ərazisindən daşınmasına icazə verməsi, neft məhsullarının ixracı kimi addımlar konkret nümunələrdir. Bu siyasət düşmənçilik ritorikasını deyil, qarşılıqlı etimadın formalaşdırılmasını hədəfləyir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də məhz Azərbaycanın və onun liderinin sülhpərvər fəaliyyətinə beynəlxalq səviyyədə verilən yüksək dəyərin ifadəsidir. Bu mükafat Azərbaycan modelinin qlobal miqyasda qəbul edildiyini göstərir. Dövlət başçısı müsahibəsində bildirib ki, belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır: "Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm. Bu gün Cənubi Qafqaz, həmçinin yeni inkişaf mərhələsinə daxil olur. Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq. Bundan əlavə, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq. Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq. Məqsədimiz budur".

**Uğur qazanmağın yeganə yolu...**

Prezident müsahibəsində deyib ki, Azərbaycan da daxil olmaqla, hər bir ölkə özünün sərhədləri boyu sabitlik haqqında düşünməlidir. Azərbaycana gəldikdə, bizdə ölkə daxilində potensial risklər mövcud deyil. Bütün potensial risklər kənardan qaynaqlana bilər: "Bu səbəbdən biz hər zaman qonşuluğumuzda sabitliyin mövcud olması haqqında düşünürük. Biz İranda baş verən müəyyən qeyri-sabitlikdən narahatıq. Bizim üçün regionda sabitlik, proqnozlaşdırılma və sülh ən böyük sərvətdir. Biz işğaldan və müharibədən əziyyət çəkmişik, minlərlə qurban vermişik. Bu gün sülhün və sabitliyin olması istənilən ölkə üçün uğur qazanmağın yeganə yoludur".

Prezident İlham Əliyev müsahibəsində bildirib ki, neftin qiyməti sabitdir - ən azı Azərbaycan üçün məqbul səviyyədədir. "Bu, İranda, Venesuelada və ya dünyanın digər bölgələrində olan vəziyyətin neftin qiymətinə ciddi təsir göstərmədiyini nümayiş etdirir. Bu, yaxşı göstəricidir, çünki həm hasilatçıların, həm də istehlakçıların gələcəklərini planlaşdırmaq üçün vəziyyətin proqnozlaşdırıla bilinməsinə ehtiyacı var. Ümid edirəm ki, Cənubi Qafqazda və region ətrafında vəziyyət pisləşməyəcək. Bizim istəyimiz, həqiqətən, bunu görməkdir. Ümid edirəm ki, hər bir ölkə regional sabitliyə və təhlükəsizliyə öz töhfəsini verəcəkdir," - deyə bildirib.

**Avropa və Avropa İttifaqı ilə enerji əməkdaşlığımız artmaqdadır**

Bəli, Azərbaycanın enerji siyasəti yeni dünya nizamında xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Cənub Qaz Dəhlizi kimi strateji layihələr Azərbaycanın etibarlı enerji tərəfdaşı statusunu möhkəmləndirib. Bu siyasət təkcə iqtisadi deyil, eyni zamanda siyasi sabitliyə xidmət edən amildir. Azərbaycan enerji resurslarını qarşılıqlı fayda prinsipinə əsaslanan əməkdaşlıq modeli təqdim edir. Bu gün Azərbaycanın qaz ixrac etdiyi ölkələrin coğrafiyası genişlənir və bu sırada Yaxın Şərq ölkələri, o cümlədən Suriya da yer alır. Bu fakt Azərbaycanın enerji siyasətinin qlobal miqyasda sabitliyə və inkişafa töhfə verdiyini bir daha sübut edir. Dövlət başçısı müsahibəsində qeyd edib ki, Azərbaycan Cənubi Qafqazın enerji ehtiyatlarına məxsus və onları Cənubi Qafqazın digər ölkələrinə ixrac edən yeganə ölkədir. Bölgənin digər ölkələri - uzun illər Gürcüstan, indi isə artıq Ermənistan enerji ehtiyatlarını Azərbaycandan idxal edir. Avropa və Avropa İttifaqı ilə isə bizim enerji əməkdaşlığımız artmaqdadır: "Biz artıq 16 ölkəyə təbii qaz ixrac edirik və onların 10-u Avropa İttifaqının üzvüdür. Boru kəməri qazı ilə coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir.

Biz təbii resurslara, nəqliyyat sisteminə və müasir boru kəmərlərinə malikik. Bizim bir çox Avropa ölkəsi ilə yaxşı münasibətlərimiz var və bu, onlar üçün öz enerji təhlükəsizliyini gücləndirmək imkanıdır. Bizim üçün isə bu, premium bazarda ehtiyatlarımızı satmaq fürsətidir. Baxmayaraq ki, biz qazı təkcə Avropaya satmırıq, bu yaxınlarda Suriyaya da ixrac etməyə başlamışıq. Ancaq qiymət baxımından ən yaxşı bazar, əlbəttə ki, Avropa bazarıdır".

**Avropa Parlamenti özünü çox qəribə vəziyyətə salır**

Hər bir addımında beynəlxalq hüquqa əsaslanan Azərbaycan bütün dünya ilə müsbət və konstruktiv əlaqələrin qurulmasında maraqlıdır. Lakin bu münasibətlərin əsasında hər zaman milli maraqlar dayanır. Təəssüf ki, bəzi beynəlxalq qurumlar, o cümlədən Avropa Parlamenti və AŞPA Azərbaycanın haqlı mövqeyinə qarşı qərəzli və ikili standartlara əsaslanan yanaşma sərgiləyir. Ermənistanın belə Azərbaycanla münasibətlərin normallaşmasını yüksək qiymətləndirdiyi bir dövrdə bu qurumların ədalətsiz mövqe tutması beynəlxalq hüquqa və obyektivliyə ziddir. Bu yanaşmalar sülh prosesinə xidmət etmir, əksinə, destruktiv təsir göstərir. Azərbaycan isə prinsipial mövqeyindən geri çəkilmir və beynəlxalq münasibətlərdə ədalətin, hüququn tərəfdarı olaraq qalır. Müsahibəsində Azərbaycanın Avropa Parlamenti tərəfindən daimi tənqidinə münasibət bildirən Prezident İlham Əliyev deyib ki, Biz artıq buna reaksiya vermirik. Aydındır ki, Azərbaycana qarşı olan bu qərəzli vəziyyət Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının, xüsusi qüvvələrin fəaliyyətinin nəticəsidir: "Artıq uzun illərdir ki, biz Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası ilə istənilən əməkdaşlığı dayandırmışıq. Biz Avropa Komissiyası ilə əməkdaşlıq edirik və bununla kifayətlənirik. Düşünürəm ki, Ermənistanın özünün Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyi bir vaxtda, bizi heç vaxt etmədiyimizdə, o cümlədən Ermənistana qarşı "təcavüzkar mövqedə" olmağımızda ittiham etməklə Avropa Parlamenti özünü çox qəribə vəziyyətə salır. Ötən ilin avqustunda Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflandı. Mən ümid edirəm ki, Avropa Parlamentinin üzvləri özlərində cəsarət taparaq Azərbaycana qarşı ədalətsiz mövqelərini yenidən nəzərdən keçirəcəklər".

*Pərviz SADAYOĞLU*

# Avrasiyada yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsi

## Prezident İlham Əliyev Davosda “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə iştirak edib






Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda “Euronews” televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə iştirak edib. Tədbirdə Azərbaycan və daha geniş bölgə üçün regional rifahın təmin edilməsi, iqtisadi imkanların yaradılması mövzusunda Azərbaycan rəhbərliyi ilə müzakirələr aparılıb. Sualları cavablandıran Prezident İlham Əliyev ölkəmizin prioritetlərinə, bağlantıların yaradılması, daşımalar, energetika sahələrində və əlbəttə ki, iqtisadi inkişaf üzrə regional qovşaq kimi Azərbaycanın artan roluna diqqət çəkib.

**İqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın birinci prioritetidir**

Uzun illər ərzində ölkəmiz üçün əsas prioritet enerji sektoru olub. Çünki zəngin resurslar respublikanın iqtisadi nailiyyətlərini artırmağa və insanların həyat səviyyəsini yaxşılaşdırmağa imkan verib. Bu gün enerji layihələrinin böyük hissəsi artıq tamamlanıb. Əlbəttə ki, bu sahədə fəaliyyətlər gələcəkdə də davam etdiriləcək. Lakin indiki mərhələdə ölkənin əsas prioriteti artıq qeyri-enerji sektoru, yəni neft və qazdan kənar sahələrdir. “İqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün birinci prioritetdir. Praktik baxımdan bu gün biz bərpaolunan enerji sahəsinə artan marağı görürük. Artıq iki iri bərpaolunan enerji elektrik stansiyasını istismara vermişik və növbəti 6 il ərzində Günəş və külək enerjisi üzrə istehsal gücümüzü əhəmiyyətli dərəcədə artıracağıq”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Bildirildiyi kimi, respublikamız 2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 gigavat güc əldə etməyi gözləyir. Ölkənin Günəş və külək potensialı çoxdur. Artıq bir neçə layihə üzrə müqavilələr bağlanıb və hazırda enerji toplanması məntəqələrinin yaradılması, ötürücü xətlərə investisiya qoyuluşu ilə bağlı müzakirələr aparılır. Dövlət başçısının bildirdiyi kimi, məqsədimiz yaşıl enerjinin ixracıdır. Bununla bağlı fikirlərini bölüşən Prezident İlham Əliyev deyib: “Məlumat mərkəzlərinə gəldikdə isə hesab edirik ki, Azərbaycan sərmayədarlar üçün əsas mərkəzlərdən birinə çevrilə bilər. Birincisi, enerji ucuzdur. İkincisi, əlavə potensialımız var. Hətta bu gün istifadə etmədiyimiz və ötürmə imkanlarının məhdudluğu səbəbindən ixrac edə bilmədiyimiz 2 gigavat elektrik enerjimiz mövcuddur.

Altı il ərzində bu göstərici 8 gigavata çatacaq və regionumuzda heç bir ölkə bu qədər əlavə gücə malik deyil. Əksər ölkələr idxaldan asılıdır”.

Qeyri-neft sektorunda daha bir mühüm sahə isə mədənçilikdir. Ölkəmiz üçün bu sahə nisbətən yenidir. Bunun səbəbləri barədə danışan Prezident İlham Əliyev “Çünki nadir metallarımızın əksəriyyəti son beş və iki il ərzində Ermənistanın işğalından azad edilmiş ərazilərdə yerləşir. Hazırda ən müasir texnologiyalardan istifadə etməklə fəal tədqiqat mərhələsindəyik ki, potensialımızı dəqiq müəyyən edək. Potensialın mövcudluğu sovet dövründə aparılmış araşdırmalardan məlumdur, lakin o texnologiyalar tamamilə köhnə idi.

Mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici investisiyaların cəlb olunması üçün əsas hədəflərdir”, - deyə vurğulayıb.

**Azərbaycanın regionda artan rolu və nüfuzu**

Ölkəmizin regionda artan rolu həm də bağlantılarla əlaqədardır. Əvvəlki mərhələdə ölkəmiz neft və qaz kəmərlərinin tikintisi üzrə bağlılıq fəaliyyətləri həyata keçirib. Son olaraq Azərbaycanın moderatorluğu ilə Cənub Qaz Dəhlizi inşa olunub. Bakıdan İtaliya sahillərinə qədər uzanan, ümumi uzunluğu təxminən 3500 kilometr olan və bir neçə ölkədən keçən Cənub Qaz Dəhlizi ən mürəkkəb qaz kəməri layihələrindən biridir. Dövlətimizin başçısının bildirdiyi kimi, bunu etmək asan deyildi. Çünki boru kəmərinin keçdiyi bütün ölkələrin hökumətləri ilə ev sahibi ölkəsi müqavilələrini, kommersiya şərtlərini və tarifləri razılaşdırmaq tələb olunurdu. Ancaq artıq bütün çətinliklər geridə qalıb. Boru kəməri 5 ildir ki, fəaliyyət göstərir. Bundan əvvəl isə Azərbaycan neft boru kəmərinin çəkilməsinə nail olub. 2006-cı ildə Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan əsas ixrac boru kəmərinin - Bakı - Tbilisi-Ceyhanın açılışı baş tutub ki, bu da ilk bağlılıq layihəsi idi.

Nəqliyyat-logistika sahəsində həyata keçirilən layihələr də bağlantıların daha da möhkəmlənməsinə güclü təsir göstərir. “Sonra artıq qonşu ölkələrlə qurulmuş münasibətlər əsasında biz nəqliyyat sahəsində bağlılıq layihələrinə sərmayə yatırmağa başladıq. Biz başlanğıcını Azərbaycandan götürən, Gürcüstan və Türkiyə ərazisindən keçən, oradan Avropaya və Aralıq dənizi limanlarına gedən dəmir yolu xəttinə investisiya yatırdıq. Beləliklə, bu layihə qismən Azərbaycandan Qərbə doğru ərazini əhatə edirdi. İndi isə biz Azərbaycandan Şərq istiqamətində layihə haqqında düşünürük”, - deyə Prezident İlham Əliyev bildirib.

Regionda Azərbaycanın iştirakı ilə bağlantıların genişlənməsi yalnız ölkəmizin resursları və əlverişli coğrafi mövqeyi ilə bağlı deyil. Bu, həm də ölkəmizin xoş məramə əsaslanan siyasəti ilə şərtlənir. Bunun da nəticəsi olaraq region dövlətlərinin ölkəmizə inamı artır. Qürurverici haldır ki, Azərbaycan ötən il Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olub. Azərbaycanın regionda artan nüfuzundan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev vurğulayıb: “Bu, beş Mərkəzi Asiya ölkəsinin prezidentləri tərəfindən qəbul olunmuş Beşlik formatını Altılıq formatına çevirmək məqsədilə yekdil qərar idi. Biz bunu Azərbaycana hörmət əlaməti, göstərdiyimiz səylərin qiymətləndirilməsi kimi qəbul edirik. Həmçinin bunu müdriklik əlaməti kimi də qəbul edirik, çünki bu gün Azərbaycandan yan keçmək o deməkdir ki, siz sanksiyalar altındakı ərazilərdən keçməlisiniz. Digər iki variant da mövcuddur, lakin onların hər ikisi Azərbaycandan Şimala və Cənuba - sanksiyaların qüvvədə olduğu zonalardan keçir ki, bu da həm mal göndərənlər, həm də, ilk növbədə, alıcılar üçün rahat deyil. Beləliklə iş elə gətirib ki, Azərbaycan Avropa üçün Mərkəzi Asiya ilə bağlantı yaratmaq məqsədi daşıyan yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsidir”.

Qeyd olunduğu kimi, indiyədək Azərbaycan öz nəqliyyat infrastrukturuna - dəniz limanlarına, hava limanlarına, dəmir yollarına, magistrallara böyük həcmlərdə sərmayələr yatırmağa nail olub. Lakin yüklərin həcmi o qədər sürətlə böyüyür ki, Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin, dəniz limanının ötürücülük qabiliyyətini artırmaq qərarına gəlib. Birinci layihə artıq tamamlanıb, dəniz limanının genişləndirilməsi layihəsinin icrası isə intensiv şəkildə davam etdirilir. “Beləliklə nəqliyyat əlaqələri, o cümlədən “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” layihəsi, həmçinin Ermənistanın da Mərkəzi Asiyanın daha geniş regional nəqliyyat şəbəkəsinə daxil edəcək, sülh işinə töhfə verəcək”, - deyə Prezident İlham Əliyev qeyd edib.

**Xarici investorlar üçün cəlbedici məkan**

Tədbirdə Prezident İlham Əliyevin vurğu etdiyi kimi, aparılan investisiya və islahatlar siyasətinə uyğun olaraq, ölkədə işsizlik və yoxsulluğu beş faiz səviyyəsinədək azaltmaq mümkün olub. Paralel şəkildə, respublikamızda orta seqment hesab olunanların sayı artır ki, bu da alıcılıq qabiliyyətininin yüksəlməsinə öz müsbət təsirini göstərir. Hazırda ölkədə əmlak bazarında bum yaşanmasının ən mühüm səbəblərindən biri məhz daxili investorlar qismində çıxış edən orta təqəbənin güclənməsidir.

Qeyd olunduğu kimi, bu gün Bakıda bir neçə irimiqyaslı şəhərsalma layihəsi həyata keçirilir. Onlardan biri “Ağ Şəhər”dir. Bu, şəhərin içində olan bir şəhərdir. Gələcək bir neçə ildə burada təxminən 50 min insan məskunlaşacaq. Digəri isə həm də turizm məkanı olan “Sea Breeze” adlanır. Bu layihənin tərkibinə əyləncə xarakterli obyektlər, hotellər və yaşayış binaları daxildir. Layihə hazırda 6 kilometrdən çox sahə boyunca uzanır və hətta daha da böyüyəcək. “Digər tikinti layihələrini nəzərə almadan, sadəcə, bu iki layihədə satış göstəriciləri onu nümayiş etdirir ki, böyük tələbat var. Mənzil və evləri alanların 70 faizindən çoxu yerlilərdir. Bu, iqtisadi islahatlara və iqtisadi inkişafa görə insanların alıcılıq qabiliyyətinin artdığını göstərir. Eyni zamanda, bu nisbət onu da göstərir ki, Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub”, - deyə Prezident İlham Əliyev bildirib.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan Trampın Sülh Şurasına Təsisçi Üzv Dövlət olmaq dəvətini qəbul edib



Yanvarın 16-da ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycan Respublikasını təşkilata Təsisçi Üzv Dövlət olmağa dəvət edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası sözügedən dəvəti qəbul edərək, Sülh Şurasına Təsisçi Üzv Dövlət olmaq niyyətini ABŞ tərəfinin diqqətinə çatdırıb. Ölkəmizin Sülh Şurasına üzvlüyü ilə bağlı rəsmi təsdiq məktubu ABŞ tərəfinə ünvanlanacaq və tələb olunan prosedurlar çərçivəsində müvafiq tədbirlər həyata keçiriləcək.

Azərbaycan hər zaman olduğu kimi beynəlxalq əməkdaşlıq, sülh və sabitliyə fəal töhfə verməyə hazırdır.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər
















20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanını ziyarət ediblər. YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

Partiya nümayəndələri tərəfindən “Türk şəhidliyi” abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri qoyularaq Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş türk qardaşlarımızın xatirəsi ehtiramla anılıb.

# Xankəndiyə ilk köç...

## 36 ailənin yurd həsrəti sona çatdı

Tarix bəzən səssiz yazılır. Bəzən isə qürurla, dik duruşla, gözlərdə işıqla. Xankəndiyə ilk köç də məhz belə bir tarixdir - səssiz deyil, amma hay-küylü də yox, təmkinli, ləyaqətli və mənalı... Xankəndi artıq təkcə bir şəhərin adı deyil. Bu ad yaddaşın, mübarizənin, səbrin və qayıdışın simvoluna çevrilib. Uzun illər həsrətində olduğumuz bu ünvan bu gün gerçək həyatla, insan nəfəsi ilə, uşaqların səsi ilə yenidən canlanır.

**162 nəfər doğma yurduna qovuşdu...**

Dünən - yanvarın 21-də Xankəndi şəhərinə ilk köç prosesi reallaşıb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış Xankəndi şəhərindən olan keçmiş məcburi köçkünlərdən ibarət 36 ailə (162 nəfər) doğma yurduna qayıdıb. Onların Xankəndiyə qayıdışı böyük coşqu ilə qarşılanıb.







Əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərin ruhu ehtiramla yad olunub. Sakinlərə yeni mənzillərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bu ərazilər qısa müddət ərzində yenidən dirçəldilir, müasir yaşayış məkanları, sosial infrastruktur obyektləri, yollar, məktəblər, səhiyyə və mədəniyyət müəssisələri bərpa və inşa olunur.

S.Qəhrəmanov vurğulayıb ki, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı təmin edilir və bu proses dövlətin daim diqqət mərkəzindədir. O, qeyd edib ki, əsas məqsəd insanların təhlükəsiz, rahat və layiqli yaşayış şəraiti ilə təmin olunması, eyni zamanda, bölgədə dayanıqlı iqtisadi və sosial həyatın formalaşdırılmasıdır.

**"Uzun illər Xankəndidə yaşamışıq"**

Xankəndiyə köçən keçmiş məcburi köçkün Rübabə Abbasova söyləyib ki, uzun illər Xankəndidə yaşayıb: "Bu səbəbdən də yaşadığımız yerlər bizim üçün çox dəyərlidir. İndi isə çox çətin günlərdən sonra sağ-salamat qayıdırıq.

Allah ordumuzu qorusun, şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlıqlarını heç vaxt unutmayacağıq. Qazilərimizə şəfa diləyirəm.

Bizə yaradılan bu şəraiti görə təşəkkür edirəm. Xankəndidə ikiotaqlı evlə təmin olunmuşuq. Məcburi köçkün düşəndə səkkiz nəfərlik ailə idik, hazırda isə qızımla geri qayıdırıq".

**"Xankəndiyə böyük bir sevinc və minnətdarlıq hissi ilə qayıdırıq"**

Keçmiş məcburi köçkün Ülviyyə Quliyevanın sözlərinə görə, bu gün yurdumuza qayıdırıq və qəlbimiz böyük bir sevinc və minnətdarlıq hissi ilə doludur: "Uşaq vaxtı oradan ayrıldığım gündən bu günə qədər Ramana qəsəbəsində yaşamışıq".

O, yaradılan şəraitə görə dövlətimizin başçısına dərin təşəkkürümü bildirib: "Onun qayğısı və diqqəti sayəsində ailəmiz üçün yeni imkanlar açıldı, uşaqlarımız xoşbəxt və təhlükəsiz bir mühitdə böyüyəcək".

**"Vətənə qayıtmaq böyük bir xoşbəxtlikdir"**

Keçmiş məcburi köçkün Familə Pəniyeva söyləyib ki, otuz üç il əvvəl Xankəndidən çıxmalı olduq və uzun illərdən sonra Vətənə qayıtmaq böyük bir xoşbəxtlikdir.

Keçmiş məcburi köçkün onlara yaradılan şəraitə görə təşəkkür edib: "Evlərimiz püşkatma yolu ilə müəyyən edilib və bundan sonra təhlükəsiz şəraitdə yaşaya biləcəyik.

Oradan çıxanda çox çətinliklər yaşamışdıq, amma heç birimiz ümidimizi itirmədik. Şəhidlərimizə rəhmət diləyirəm, qazilərimizə cansağlığı arzulayıram".

**Şəhəri şəhər edən insandır...**

Keçmiş məcburi köçkünlərimizin Xankəndiyə üz tutması təkcə ev dəyişmək deyil, həm də gələcəyə investisiya, sabaha inam deməkdir. Son dövrlərdə Xankəndidə görülən işlər bu inamın təsadüfi olmadığını göstərir. Şəhərin infrastrukturu mərhələli şəkildə yenilənir. Yollar bərpa olunur, kommunikasiya xətləri çəkilir, elektrik, su və qaz təchizatı müasir standartlara uyğunlaşdırılır. Bu işlər təkcə texniki xarakter daşımır - onlar Xankəndinin yenidən yaşanacaq bir şəhər olduğunu sübut edir.

Xüsusi diqqət sosial infrastruktura yönəlib. Təhsil və səhiyyə müəssisələrinin bərpası və yenidən təşkili prioritet məsələlərdəndir. Məktəblərin, uşaq bağçalarının, tibb məntəqələrinin fəaliyyətə hazırlanması göstərir ki, Xankəndi yalnız bu gün üçün deyil, gələcək nəsillər üçün planlaşdırılır. Çünki şəhər yalnız binalardan ibarət deyil - şəhəri şəhər edən insandır.

Eyni zamanda, Xankəndidə inzibati və ictimai idarəetmə sistemi formalaşdırılır. Dövlət qurumlarının fəaliyyəti, hüquq-mühafizə orqanlarının işi şəhərdə sabitliyin və təhlükəsizliyin təmin olunduğunu göstərir. Bu isə köç etməyi düşünən insanlar üçün ən vacib amillərdən biridir.

Xankəndinin iqtisadi potensialı da diqqət mərkəzindədir. Kiçik və orta sahibkarlığın inkişafı üçün imkanlar yaradılır, xidmət sektoru genişlənir, yeni iş yerləri formalaşdırılır. Bu, köçün yalnız emosional deyil, həm də iqtisadi baxımdan əsaslandırılmış olmasına şərait yaradır. İnsan bilməlidir ki, köçdüyü yerdə təkcə yaşayış deyil, dolanışıq da mümkündür.

Xankəndiyə köçmək qorxmadan yaşamağı, öz torpağında sahib kimi addımlamağı ifadə edir. Bu proses bir dövlətin postmünaqişə mərhələsində göstərdiyi siyasi iradənin canlı təzahürüdür. Xankəndinin küçələri yenidən ritm tapır. Bu ritm quruculuğun, bərpanın, dinc həyatın ritmidir...

*Yeganə BAYRAMOVA*

# Azad ərazilərdə iqtisadi fəallıq artır



Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin icrası, "yaşıl texnologiya"ların tətbiqi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi regionun biznes cəlbediciliyini artırıb və buradakı zəngin iqtisadi potensialdan istifadə olunmasına geniş imkanlar yaradıb. Hazırda bəhs olunan ərazilərdə rahat yaşayış məntəqələrinin salınması, genişmiqyaslı infrastruktur quruculuğu ilə paralel şəkildə, məqsədyönlü iqtisadi reinteqrasiya tədbirləri həyata keçirilir. Bu siyasətin davamı olaraq Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə bir neçə gün əvvəl baş tutan növbəti səfəri çərçivəsində Ağdərə rayonunda yaradılan yeni istehsal təyinatlı müəssisələrdə olub və Özünün dəyərli tövsiyələrini verib.

## Ərazilərin sənaye potensialı güclənir

Müharibədən sonrakı 5 il ərzində işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişi istiqamətində görülən işlərin miqyası kifayət qədər böyükdür. Bu ərazilərin iqtisadi dirçəlişində mühüm rol oynayan Ağdam və Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal olunub. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Ötən dövrdə "Xankəndi" Biznes Mərkəzinin açılışı baş tutub. Müasir infrastruktur təminatına malik olan mərkəzin fəaliyyətə başlaması Azərbaycanın tarixi şəhəri olan Xankəndinin işğaldan azad edilməsindən sonra burada biznes mühitinin yaradılması, yeni iş yerlərinin açılması və ümumilikdə şəhərin inkişafının sürətləndirilməsində mühüm rol oynayacaq. Xankəndi şəhərində Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyətə başlaması azad ərazilərə köç edən sakinlərin məşğulluğunun təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu müəssisənin işə salınması Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsinə, həmçinin ölkədə yüngül sənaye sektorunun inkişafına, işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişinə xidmət edir.

İşğaldan azad olunmuş ərazilərdə aqroparkların yaradılması bu yerlərin münbit torpaqlarından səmərəli istifadə olunmasına geniş imkanlar açır. "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunduğu "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərir.

Bütövlükdə, işğaldan azad edilmiş ərazilərin böyük iqtisadi potensialı var. Ölkəmiz hələ bu potensialdan istifadə edilməsinin başlanğıc mərhələsindədir. Perspektivdə regionun aqrar, turizm, mədənçilik, "yaşıl enerji" potensialından dolğun şəkildə istifadə olunması son nəticədə Azərbaycanda daha böyük həcmdə ümumi daxili məhsul istehsalına öz təsirini göstərəcək və milli iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artmasına güclü təkan verəcək.

## Dağ-mədən sənayesi üzrə ilk layihə

Səfər çərçivəsində Prezident İlham Əliyevin fəaliyyəti ilə tanış olduğu "Dəmirli" Filiz Emalı Kompleksinə mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər



tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə həyata keçirilən ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025-2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarılabilən həcmi dəqiqləşdiriləcək.

Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-ın "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır. Dövlət başçısı tərəfindən 2024-cü ildə təsdiq edilmiş Qanuna əsasən, hasilatın pay bölgüsü haqqında saziş üzrə dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə həvalə edilib.



## Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonasına çevrilir

Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırıqlar da uğurla həyata keçirilir. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə istismar olunan 307 MVt gücündə 38 su elektrik stansiyasında 2025-ci ildə 750 milyon kilovat-saat "yaşıl enerji" istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES "AzərEnerji" ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır. Prezident İlham Əliyevin açılışına qatıldığı "Qozlukörpü" Su Elektrik Stansiyası da Tərtərçay üzərində inşa olunub. "Qozlukörpü" Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Stansiyada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Ətraf mühitə dost texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.

*Mübariz ABDULLAYEV*

# Razılaşmalara əməl olunacaqmı?

# Suriyada atəşkəs...

*N.BAYRAMLI*

Son günlər Suriya ordusu Türkiyə hərbçilərinin dəstəyi ilə bir sıra əraziləri YPG/SDQ terrorçularından təmizləyib. Hələb şəhərində hökumət qüvvələri üstünlüyü ələ alıb. Suriyanın Deyr əz-Zor vilayətinin bir hissəsi də YPG-dən azad olunub. “TRT Haber”in məlumatına görə, Fərat çayının şərqindəki Deyr əz-Zor vilayətində üsyan edən qəbilələr və Fəratın qərbindən bölgəyə gələn qüvvələr “Əl-Ömər” neft və “Konoko” təbii qaz yataqlarının yerləşdiyi bölgəni YPG terrorçularından xilas ediblər. ABŞ əvvəllər baza kimi istifadə etdiyi bu yataqlardan geri çəkiləndən sonra bölgənin təhlükəsizliyi risk altında idi. Lakin Suriya ordusunun əməliyyatı fonunda yerli qəbilələrin də hərəkətə keçməsi ilə Deyr əz-Zorda 10-a yaxın qəsəbə və kənd azad olunub.

**Atəşkəs sazişində nələr var?**

Bir neçə günlük toqquşmalardan sonra Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa YPG/SDQ terror təşkilatının yerləşdiyi bütün cəbhələrdə atəşkəsi nəzərdə tutan yeni razılaşmanı təsdiqləyib. Yeni razılaşmalara uyğun olaraq, YPG/SDQ terror təşkilatının bütün bölmələri Fərat çayının şərq sahilinə köçürüləcək. Sənəd həmçinin hökumət ordusunun bazar günü geri qaytardığı Deyr-əz-Zor əyalətindəki neft və qaz yataqlarının nəzarətinin Suriya hakimiyyətinə keçdiyini təsdiqləyir. İlkin addım kimi Fərat çayının şərqindəki ərazidən bütün SDQ hərbi birləşmələri geri çəkilir, Deyr-əz-Zor və Rakka əyalətləri üzərində nəzarət həm inzibati, həm də hərbi cəhətdən dərhal və tam şəkildə Suriya hökumətinə təhvil verilir.

Hökumət də öz növbəsində SDQ heyətini və döyüşçülərini, eləcə də bu əyalətlərdəki mülki administrasiya nümayəndələrini təqib etməməyi öhdəsinə götürüb. Həsəkə əyalətindəki bütün vətəndaş institutları Suriya dövlətinin strukturlarına və onun inzibati sisteminə inteqrasiya olunacaq. Suriya hökuməti bütün sərhəd-keçid məntəqələrinin, eləcə də regionun neft və qaz yataqlarının tam nəzarətini öz üzərinə götürüb. Onların təhlükəsizliyi təbii sərvətlərin dövlətə qaytarılmasını təmin etmək üçün nizami silahlı qüvvələr tərəfindən təmin ediləcək. Bütün SDQ hərbçiləri və təhlükəsizlik işçiləri tələb olunan təhlükəsizlik yoxlamalarından keçdikdən sonra fərdi olaraq Suriya Müdafiə və Daxili İşlər Nazirliklərinin strukturlarına inteqrasiya olunacaqlar. Onlara müəyyən edilmiş qaydada müvafiq hərbi rütbələr, maddi və lojistik dəstək veriləcək, eyni zamanda kürd xalqının yaşadığı bölgələrin spesifik xüsusiyyətlərinin və kimliyinin qorunması təmin ediləcək.

SDQ rəhbərliyi əvvəlki rejimin qalıqlarını öz sıralarına qəbul etməməyi və Suriyanın şimal-şərqində yerləşən bu birləşmələrin zabitlərinin siyahılarını təhvil verməyi öhdəsinə götürüb. Bundan başqa, siyasi iştirak və yerli təmsilçiliyin təminatı olaraq, Haseke əyalətinin qubernatoru vəzifəsinə namizədin təyin edilməsi barədə prezident fərman verəcək. Eyni zamanda, Ayn-əl-Ərəb (Kobani) şəhəri ağır hərbi qüvvələrdən azad ediləcək. Orada yerli sakinlərdən ibarət daxili təhlükəsizlik qüvvələri yaradılacaq, Suriya Daxili İşlər Nazirliyinə inzibati tabe olan yerli polis qüvvələri isə saxlanılacaq.



**Türkiyə Suriya hakimiyyətinə dəstəyini bəyan edib**

Türkiyə Xarici İşlər Nazirliyi isə Suriyada əldə edilən atəşkəslə bağlı sazişi alqışlayıb: “Ümid edirik ki, Suriyanın gələcəyi terrorizm və bölünmədə deyil, birlik və inteqrasiyadadır. Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa tərəfindən 18 yanvarda elan edilən atəşkəs və tam inteqrasiya sazişinin Suriyanın ərazi bütövlüyü və birliyi əsasında ölkədə sabitlik və təhlükəsizliyin bərqərar olması səylərini sürətlə və effektiv şəkildə irəli aparmasını arzulayırıq.



Hesab edirik ki, razılaşma Suriya xalqının, eləcə də bütün regionun, xüsusən də Suriyanın qonşularının təhlükəsizliyinə və sülhünə töhfə verəcək”.

Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə telefon danışığı aparıb. Liderlər iki ölkə arasındakı münasibətləri və Suriyadakı son hadisələri müzakirə ediblər.

**Aytən Qurbanova: Terrorla mübarizə Türkiyənin milli təhlükəsizlik məsələsidir**

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən politoloq Aytən Qurbanova Suriyadakı proseslərdə Türkiyənin önəmli rolunu vurğulayıb. A.Qurbanova bildirib ki, Türkiyə tərəfindən Suriyada əldə edilən atəşkəslə bağlı verilən bəyanatlar rəsmi Ankaranın Suriyaya münasibətdə strateji yanaşmasının dəyişmədiyini, həmçinin daha sistemli və konseptual mərhələyə keçdiyini göstərir. Belə ki, rəsmi bəyanatlarda ifadə eilən əsas mövqe Suriyanın ərazi bütövlüyü, siyasi birliyi və terrorizmdən tam təmizlənməsi üzərində qurulub. Onun fikrincə, bu yanaşma Türkiyənin Suriya məsələsini yalnız təhlükəsizlik problemi kimi deyil, eləcə də regional sabitliyin əsas dayaqlarından biri kimi dəyərləndirdiyini göstərən mühüm məqamdır: “Digər tərəfdən isə keçid dövrü prezidenti Əhməd Şara tərəfindən elan edilən atəşkəs və inteqrasiya sazişinə rəsmi Ankaranın verdiyi dəstək Türkiyənin Suriyada mərkəzi hakimiyyətin güclənməsini və paralel silahlı strukturların ləğvini prioritet hesab etdiyini aydın şəkildə ifadə etmiş olur”.

Politoloq qeyd edib ki, terror təhlükəsinin aradan qaldırılması həm Türkiyənin milli təhlükəsizliyi, həm də regionun uzunmüddətli sabitliyi üçün əsas şərtdir: “Nəticə etibarilə, Türkiyənin mövqeyi Suriyada yeni mərhələnin yalnız atəşkəslə deyil, real inteqrasiya, mərkəzi idarəetmə və terrorla mübarizə üzərində qurulmasına əsaslanır. Rəsmi Suriyanın gələcəyinin parçalanmada deyil, vahid və sabit dövlət modelində olduğunu açıq şəkildə bəyan edir”.

**İlyas Hüseynov: Regionda Tükiyənin mövqeləri güclənir**

“Yaxın Şərqdə proseslər inkişaf edir və geosiyasi maraqlar, bölgə üzərində təsir imkanlarını artırmaq naminə silahlanma, eləcə eskalasiya genişlənməkdədir. Xüsusilə, İranda baş verən proseslər digər bölgələrə də sirayət edir. PKK-nın Suriya uzantısı olan YPG-ə şiddətli zərbələrin edilməsi buna nümunədir. Hazırkı Suriya ordusu Bəşər Əsəd rejimini devirəndə də çox böyük peşəkarlıq nümayiş etdirdi və qısa müddət ərzində hərbi hədəflərə nail oldu. Lakin maraqlıdır ki, bölgədə “parçala və hökm sür” siyasətini həyata keçirən xarici qüvvələr Suriyadakı əməliyyatlara göz yumurlar”. Bu fikirləri isə politoloq İlyas Hüseynov deyib. O bildirib ki, aparıcı dövlətlər bölgədə təhlükəsizliyin təmin olunması üçün Suriya hökumətinin qərarlarını dəstəkləyirlər. Politoloqun fikrincə, Türkiyənin dövlətçiliyinə, milli təhlükəsizliyinə kənardan “meydan oxuyan” qüvvələr zərərsizləşdirilir: “Bu da qardaş ölkənin siyasi və hərbi qələbəsi hesab oluna bilər. Düşünürəm ki, YPG/SDQ terrorçularının təhlükə mənbəyi kimi sıradan çıxarılması Türkiyə üçün daha geniş imkanlar yaradır və ayrı-ayrı güc mərkəzlərinin hazırkı dövrdə müdaxilə imkanlarının qarşısını alır. Bu tarixi fürsətdən Suriya ordusu Türkiyənin dəstəyi ilə faydalanır”.

# ABŞ NATO-da təmsilçiliyini azaldır?

*N.BAYRAMLI*

Qrenlandiya problemi ABŞ-la Avropa ölkələri arasındakı münasibətlərə zərər vurur. Donald Trampın dünyanın ən böyük adasını ələ keçirməkdə israrlı olması Avropa ölkələrini çətin vəziyyətdə qoyub. Çünki ada Danimarkaya məxsusdur və bu dövlət həm NATO-nun, həm də Avropa İttifaqının üzvüdür. Belə bir halda, bir NATO üzvünün digər üzvə qarşı ərazi iddiası ilə çıxış etməsi alyans daxilində ziddiyyətlər yaradır. Amma Tramp iddia edir ki, ABŞ-sız NATO-nun heç bir gələcəyi yoxdur.

**Alyansın təxminən 30 strukturunda ixtisarlar gözlənilir**

Bütün bunların fonunda, Pentaqon ABŞ-ın bir sıra NATO məsləhət qruplarındakı iştirakını azaltmağı planlaşdırır. Bu barədə “The Washington Post” qəzeti öz mənbələrinə istinadla məlumat yayıb. Məlumata görə, nəzərdə tutulan addım təxminən 200 ABŞ hərbi qulluqçusuna təsir edəcək və ABŞ-ın NATO-nun təxminən 30 strukturu, o cümlədən müxtəlif döyüş sahələrində alyans qüvvələrinə təlim keçən “Mükəmməllik mərkəzləri”ndə iştirakının azaldılmasını nəzərdə tutur.

Qeyd olunur ki, ABŞ bütün personalı eyni vaxtda geri çəkmək niyyətində deyil. Bunun əvəzinə, xidmət müddəti başa çatan hərbçilərin əvəz olunmaması planlaşdırılır. Nəşr bildirir ki, ABŞ-ın sözügedən mərkəzlərin fəaliyyətində iştirakı tamamilə dayandırılmayacaq. İki ABŞ rəsmisinin sözlərinə görə, bu dəyişikliklər bir neçə aydır müzakirə olunur.

Donald Tramp bir neçə gün əvvəl jurnalistlərə açıqlamasında deyib ki, NATO Qrenlandiya məsələsində bizimlə danışıqlar aparır. Onun sözlərinə görə, milli təhlükəsizlik üçün ABŞ-ın Qrenlandiyaya çox ehtiyacı var. “Əgər ora bizdə olmasa, xüsusilə də Qızıl Qübbə və digər məsələlərdə milli təhlükəsizlikdə böyük bir boşluq yaranacaq. Hərbi sahəyə çoxlu investisiyalarımız var. Dünyada hərbi sahə getdikcə güclənir. Biz bu məsələdə NATO



ilə danışırıq”, - deyən Tramp əlavə edib ki, Qrenlandiya məsələsi ilə bağlı görəcəyimiz işdən həm NATO, həm də biz məmnun olacağıq. O bildirib ki, Qrenlandiya milli təhlükəsizlik və hətta qlobal təhlükəsizlik üçün çox vacibdir. Ağ Ev rəhbəri Qrenlandiya xalqının ABŞ-ın Arktika ərazisini əldə etməsini dəstəkləyəcəyini hesab edir: “Mən onlarla danışmamışam. Onlarla danışanda əminəm ki, çox sevinəcəklər”.

Konnektikut ştatından olan demokrat senator Kris Mörfi isə “NBC News” telekanalının efirində deyib ki, rəsmi Vaşinqton tərəfindən Qrenlandiyanın ilhaqı Şimali Atlantika Alyansının sonu olacaq. Onun sözlərinə görə, Qrenlandiyanın ilhaqı NATO-nun sonunu gətirəcək: “Şimali Atlantika Alyansının Qrenlandiyanı müdafiə etmək öhdəliyi var və bu halda ABŞ Avropa, Böyük Britaniya və Fransa ilə müharibə vəziyyətinə düşəcək”.

**Qərar Avropa ölkələrinə təzyiq məqsədi daşıya bilər**

Ümumiyyətlə, Donald Tramp ikinci dəfə hakimiyyətə gəldikdən sonra ABŞ-ın NATO-nu tərk edəcəyi ilə bağlı bir neçə dəfə xəbərdarlıq edib. Bunu əsas səbəbi isə alyansın “yükünün” daha çox ABŞ-ın üzərində olması ilə bağlıdır. Bir çox siyasətçilər bunu yalnız hədə tonu kimi qəbul etsə də, “SOS” siqnalı səsləndirənlər də tapılırdı. Prezident Donald Tramp dəfələrlə müttəfiqlərinin müdafiə xərclərinin yetərli olmaması səbəbindən ölkəsinin NATO-dan çıxması ilə bağlı mövqeyini səsləndirmişdi. Hətta ABŞ-ın yeni milli təhlükəsizlik strategiyasında belə bu amil nəzərə çarpır - qeyd edək ki, ötən il dekabrın 4-də Tramp administrasiyası Milli Təhlükəsizlik Strategiyasını açıqlayıb. Bu strategiya formal olaraq, ölkənin xarici və müdafiə siyasətinin fundamental prinsiplərini və prioritetlərini təsbit edən sənəddir..

Vaşinqtonun tənqidlərindən sonra NATO-nun Avropa müttəfiqləri alyans üçün xərclərini müəyyən qədər artırsalar da, bu, ABŞ-ı qane etmir. Vaşinqton ardıcıl şəkildə bildirir ki, Avropa ölkələrinin əksəriyyəti müdafiə sahəsinə kifayət qədər vəsait ayırmır. ABŞ ümumi NATO müdafiə xərclərinin təxminən 70 faizini qarşılayır və bu göstərici “ədalətsiz yük bölgüsü” kimi qiymətləndirilir. Bir çox siyasətçilər, xüsusilə Qərbi Avropadan olan politoloqlar Vaşinqtonun mövqeyini daha çox siyasi təzyiq aləti kimi dəyərləndirirlər. Onların fikrincə, bu bəyanatlar əsasən Avropa üzvlərini müdafiə xərclərini artırmağa vadar etmək məqsədi daşıyır.

# Tənhalıqdan qurtuluş

## Orxan Pamukun “Qara kitab” romanı haqqında

**əvvəli ötən saylarımızda**

Bu yanaşma Cəlal Salikin köşə yazılarında da özünü göstərir. Məsələn, “Şəms Təbrizini kim öldürüb?” adlı fəsildə Qalib Cəlalın çap olunmamış bir araşdırmasını gözdən keçirir. Araşdırmasıyla Cəlal bu nəticəyə gəlir ki, Mövlananın “Məsnəvi” silsiləsindəki hekayətlər başdan-ayağa ədəbi plagiatdır: bəzisi “Min bir gecə”dən, bəzisi “Kəlilə və Dimnə”dən, bəzisi “Məntiqüt-teyr”dən, bəzisi də “Leyli və Məcnun”dan oğurlanıb...

Əlbəttə, bütün sufi şairlərin yaradıcılığında belə faktlara rast gələ bilərik, ancaq Şərqdə nədənsə bu cür hallara görə heç kimi oğru tutmayıblar, çünki sufi ədəbiyyatı miniatür sənəti kimi bir növ kollektiv əməkdir, sufilərin sayəsində mistik məzmunlu neçə-neçə bəlli süjet əsrlər boyu əldən-ələ gəzib, dildən-dilə dolaşıb. Həm sufi ədəbiyyatında, həm də miniatür sənətində filan əsərə kimin qələm çaldığı əsas deyil, əsas odur ki, əsər ortada olsun, mesaj insanlara çatsın. Cəlal Salik eynən müəllifin özü kimi bu məsələlərə Qərb insanının gözüylə baxdığına görə belə bir orientalist nəticə çıxarır. Halbuki elə həmin müəllif “Mənim adım qırmızı” romanında fərdiyyətçiliyə, ayrıcalığa önəm verməyən, dünyanı Allahın gördüyütək təsvir eləyən Şərq miniatür sənətiylə individuallığı qabardan, fərdi kontekstindən ayıran Avropa portret rəssamlığının fərqini, bu iki sənət növünün intriqasını yüksək bədii-fəlsəfi səviyyədə şərh eləyib.

Cəlal Salikin (yəni elə müəllifin) avropasayağı orientalist baxışı bir də onda özünü göstərir ki, Mövlana ilə Şəmsin (eləcə də ondan sonrakı könül dostlarının) münasibətində şübhəli məqamlar, cinsi-fizioloji təfərrüat axtarır, bununla da faktiki olaraq ruhun varlığına, könül dostluğuna, Sokratla Platondan üzübəri olmuş-keçmiş ustad-şagird bağlılığına, bizə bəlli tarixdə Nizamiylə Xaqanidən (onlar həyatda bircə dəfə görüşüblər) tutmuş Tolstoyla Dostoyevskiyə (eyni dövrdə yaşasalar da, heç görüşməyiblər) qədər neçə-neçə örnəyinə rast gəldiyimiz saf, qüdrətli kişi məhəbbətinə skeptik yanaşdığını göstərir. Adını çəkdiyimiz fəsildə belə bir cümlə də var: “Mövlanada Cəlalı ən çox ilgiləndirən şey həyatının bəzi dönəmlərində bəzi kişilərlə qurduğu “cinsi və mistik” yaxınlıqlarla bunların hekayələrinə də yansıyan əsrarı ve sonuclarıydı”.

Üstəlik, Cəlal Şəmsin ölümündə Mövlananın maraqlı olduğuna dair “dəlilləri” də bir detektiv hərisliyi ilə tarixin tozlu arxivlərindən eşib çıxarır, jurnalistikanın sensasiya yaratmaq, tozanaq qoparmaq həvəsinin bəhrələrini tarixi gerçəklər kimi qələmə verir. Anlayıram ki, postmodern ironiyanın, romanın yazıldığı illərdə yeni-yeni moda mindirilən ədəbi kinayəbazlığın, klassik irsə münasibətdə total nihilizmin borcunu verib dəblə ayaqlaşmaq üçün, oxucunu öz heyrətiylə əyləndirmək üçün müəllif belə-belə hoqqalara, standartdan kənar yanaşmalara, qurşaqdan aşağı yozumlara ehtiyac duyub. Ancaq bir daha vurğulamağı özümə borc bilirəm: əlbəttə, təsəvvüf əhlinin də arasında yolunu azan, tapındığı həqiqəti yanlış yozub, təhrifə uğradıb gözdən salan yetərincə nadürüst, bədəməl, sapqın olub, fəqət insanı Tanrı ucalığına qaldıran sufi poeziyasının müqəddəs duyğularla süslənmiş kitabını, Füzuli demiş, ürəyinin damarlarıyla şirazələyən Şərq adamı heç vaxt belə düşünməz...

***

“Qara kitab”ın fəlsəfi-estetik bazası Əttarın, Mövlananın, Nəsiminin, Qalibin poetikası - bu dörd möhkəm sütun üstündə sahmanlanıb. Bunlardan Nizamiylə aşağı-yuxarı eyni dövrdə yaşamış mistik fars şairi Fəridəddin Əttarı, onun “Məntiqüt-teyr” poemasını xüsusi vurğulamaq lazımdır. Əttarın poeması kimi Pamukun romanı da ezoterik rəmzlərlə, mistik işarələrlə zəngindir. Qəhrəmanların adı da simvolikdir: Röyanın isminə toxunduq, məsələ burasındadır ki, onun romanda ancaq elə adı, xatirəsi var, bəlkə də heç belə adam olmayıb, onu Qalib öz xəyalından doğub; Cəlal Salikin ismi on üçüncü yüzilliyin ən böyük sufi şairi, Əttarı özünün ustadı saymış Mövlana Cəlaləddin Rumidən gəlir, təxəllüsünün mənası isə mistik yolun yolçusu deməkdir; əsərin qəhrəmanı Qalib on səkkizinci əsrdə yaşamış osmanlı ürfan şairi, mövləvi ordeninin üzvü, Mövlananın ardıcılı Şeyx Qalibin iki yüz il sonra İstanbulda yenidən peyda olmuş təcəllasıdır. Şeyx Qalib Mövlanaya necə ustad kimi baxırsa, advokat Qalib də əmisi oğlu Cəlala eləcə heyranlıqla pərəstiş eləyir.

Əttarın poemasıyla yanaşı, Orxan Pamuk romanda Mövlananın “Məsnəvi”sindən, Şeyx Qalibin “Hüsnü-eşq” mənzuməsindən də çox bəhrələnib. Qismət Rüstəmov bir az əvvəl xatırlatdığım müsahibəsində bütün bunlar barəsində belə deyir:

“Pamuk “Məsnəvi”dən həm motiv, həm forma mənasında bəhrələnib. Bəli, romanda bir-birinin içindən çıxan əhvalatlar var. “Məsnəvi”nin də, “Min bir gecə” nağıllarının da quruluşu matryoşkanı xatırladır. Əhvalat içindən əhvalat doğulur və bu, elə bil sonsuzluq effekti yaradır. Bütün romanlarında olduğu kimi bu əsərdə də Orxan Pamuk məkan və personajların adlarıyla da çoxqatlılıq yaradır: Cəlal - Cəlaləddin Rumi adının qısaltmasıdır. Romanın bir yerində Cəlal Mövlana haqqında elə danışır, elə bil özü haqqında danışır. Deyim ki, romanda Əttarın “Məntiqüt-teyr” əsəriylə də paralellik var, bu haqda çox yazılıb. Əttarın əsərində minlərlə quş Qaf dağına yola düşür ki, quşlar şahı Simurq quşunu tapsın. Bu səyahətin sonuna quşlardan yalnız otuzu salamat çatır, Simurq da elə farsca “otuz quş” deməkdir. Səfər bitəndə quşlara əyan olur ki, Simurq quşu elə onlar özləriymiş. Bu, Şərqdə çox məşhur motivdir, sonradan Qərb ədəbiyyatında da çox işləndi. Əsas məsələ səyahətin, yolun, prosesin özüdür və yalnız yolu getməyə səbri, dözümü çatanlar fitrətdən içlərində gizli qalanı tapa bilirlər. Koelyonun “Kimyagər” romanını yada salaq. Hə, Əttarın əsərində kimlik axtarışına çıxan quşların səyahəti boyu araya xırda-xırda əhvalatlar, ibrətamiz pritçalar yerləşdirilib. Pamuk da “Min bir gecə”də, “Məsnəvi”də, Əttarın poemasında olan bu strukturu mənimsəyib, ana xətdən kənara çıxan, amma bir növ həm də həmin ana mövzunun kiçik modelləri olan sonsuz sayda peyk-hekayələr yaradıb. Pamuk, məncə, “Min bir gecə”dən iki məsələni əxz eləyib: hekayə içində hekayə yazmağı, bir də maraqlı əhvalat danışmağın (maraqlı yazmağın) ölümdən qurtuluşun, yəni bir növ əbədiyyətin yeganə yolu olmasını...”

**davamı növbəti sayımızda**



*F.UĞURLU*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Qışda su içək, yoxsa çay?

## Zəncəfilli, adaçaylı, itburnulu çaylar immuniteti gücləndirir

Soyuq havalarda əlimiz avtomatik olaraq çaya gedir. Sanki soyuq hava ilə birlikdə yazılmamış bir qanun da qüvvəyə minir: “Qışda su yox, çay içərlər”. İsti çay, xüsusən də bitki çayları qışda əla seçimdir. Zəncəfilli, adaçaylı, itburnulu çaylar həm də immunitetə dəstək olur.

Havanın temperaturu düşdükcə, su içmək istəyimiz azalır. Yəni qış aylarında daha az su içirik. Bir qismimiz isə ancaq çay içirik, su içməyin qışda xəstələnməyimizə səbəb olduğunu düşünürük. Ancaq həkimlər hər zaman sağlamlıq üçün maye qəbulunun, su içməyin vacibliyini vurğulayırlar. Bəs qışda nə edək? Su, yoxsa çay içək?

Dietoloq Şəfa Yadigarova “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, yayda olduğu kimi, qışda da eyni miqdarda maye qəbul etmək son dərəcə vacibdir: “Bizim kimi orta iqlim qurşağında, yaxud isti yerlərdə yaşayan insanlar qışda bədən alışqan olmadığı üçün soyuq su içən kimi xəstələnirlər. Ona görə cəmiyyətimizdə qışda daha çox otaq temperaturunda suya, yaxud çaya üstünlük verirlər”.

Dietoloq qeyd edib ki, soyuq havalarda su içmək istəyimiz olmaya bilər, ancaq maye qəbulunun orqanizm üçün faydalı olduğunu unutmamalıyıq: “Soyuq hava ilə birlikdə insanlarda maddələr mübadiləsinin sürəti də aşağı düşür, bu da su istəyini azaldır. Bu səbəbdən qış aylarında su içilməsi, ümumilikdə maye qəbulu böyük ölçüdə azalır. Bu azalma bəzən orqanizmin günlük su ehtiyacının yarısından da az ola bilər. Ancaq bilməliyik ki, bu vəziyyət böyrəklər başda olmaqla bir çox orqana mənfi təsir edir. Orqanizmin soyuqdəymədən, qrip infeksiyalarından və zərərli viruslardan qorunması üçün əsas ehtiyaclardan biri təmiz hava və mayedir. Buna görə də, yayda olduğu kimi, qışda da eyni miqdarda maye qəbul etmək son dərəcə vacibdir”.





### “Soyuq su içə bilirsə, bu, daha yaxşıdır”

Ş.Yadigarova bildirib ki, soyuq su içə biliriksə, qışda da buna üstünlük verməliyik: “Gündəlik bədənin otuzda biri qədər maye içilməsi tövsiyə olunur. Maye qəbulu ilə bağlı hər kəs orqanizminə uyğun davranmalıdır. Soyuq su içə bilirsə, bu, daha yaxşıdır. Əgər soyuq su ona zərər verirsə, otaq temperaturunda, yaxud ılıq su içə bilər. Əgər üstünlüyü çaya verirsə, davamlı çay içməyin orqanizmə elə bir zərəri yoxdur. Sadəcə olaraq diqqət etməliyik ki, çay həddindən artıq isti olmasın. İsti olanda selikli qişanı yandıra, istilik bir az artıq olduqda, suluqların əmələ gəlməsinə səbəb ola bilir. Ətli yeməklərdən sonra çay içmək üçün yarım saat, bir saat fasilə verməliyik. Çünki çay ətdə olan dəmiri oksidləşdirir və oksidləşmiş dəmir orqanizm tərəfindən sovurulmur”.

Dietoloq havalar soyuyan kimi çaya üstünlük verməyimizin səbəblərindən də danışdı: “Bu həm ona görədir ki, cəmiyyətimizin alışqan olduğu adətlər var. Dünyada ən çox çay içən cəmiyyətlərdən biriyik, bu cəhətdən də baxanda anlaşılandır. Yayda hava isti olur, çay çox getmir, amma hava soyuyan kimi çaya üstünlük verilməsi artır. Həm də qismən bədən də bunu tələb edir. Çünki qışda soyuq su içəndə, daha çox xəstələnirik. Bu, soyuq ölkələrdə yaşayan insanlar üçün keçərli deyil. Amma bizim kimi orta iqlim qurşağında, yaxud isti yerlərdə yaşayan insanlar qışda bədən alışqan olmadığı üçün soyuq su içən kimi xəstələnirlər. Ona görə cəmiyyətimizdə qışda daha çox otaq temperaturunda suya, yaxud çaya üstünlük verirlər”.



### Soyuqlama və boğaz ağrısı zamanı isti mayelərə üstünlük veririk

Ş.Yadigarova vurğulayıb ki, ümumiyyətlə, soyuq su ilə bağlı araşdırmaçıların fikirləri ziddiyyətlidir: “Bəzi araşdırmaçılar soyuq suyun daha faydalı olduğunu söyləyirlər. Deyək ki, boğaz ağrısı zamanı soyuq su içmənin, buz udmanın həmin nahiyədə olan istiliyi aşağı saldığı və iltihab prosesinin sönməsinə köməkçi olduğu deyilir. Bu isə bizim cəmiyyətdəki yanaşmaya tamamilə ziddir. Biz soyuqlama və boğaz ağrısı zamanı isti mayelərə üstünlük veririk. Bəzi araşdırmaçılar da soyuq suyun xəstəlik yaratdığı qənaətindədirlər. İzahları da belədir ki, soyuq su həzm sistemində seliyin miqdarını bir qədər artırır. Bu da həmin nahiyədə bakteriya və virusların inkişafı üçün daha münbit şərait yaradır və bu da xəstələnməyə yol açır. Selik miqdarının artması immun sistemi üçün də təhlükədir. Soyuqlamaya və boğaz ağrısına səbəb olur”.

Ş.Yadigarova soyuq su içmənin orqanizm üçün faydalarının olduğunu bildirdi: “Soyuq su içmənin faydası daha çox yay aylarında olur. Hava isinir, soyuq su içəndə bədən daha çox sərinləmiş olur. Bununla bədən temperaturunun tarazlaşmasına köməklik edir. Ümumiyyətlə, soyuq su içəndə bədən həmin suyu isitməyə çalışdığı üçün daha çox enerji xərcləmiş olur. Bununla da “Soyuq içərkən insan arıqlayarmı?” sualına qismən cavab vermiş olur. Enerji sərfiyyatı və metabolizmin sürəti bir az da olsun artır”.

### Qışda su içmək vərdişini necə yaratmalı?

Dietoloqun sözlərinə görə, soyuq su içməyin tövsiyə olunmadığı məqamlar da var: “Bizim mətbəximizdə qış yeməkləri ağırdır, yağlıdır. Soyuq su yağların donmasına və həzmin çətinləşməsinə səbəb olur. Ona görə, yemək zamanı soyuq su içilməsi tövsiyə edilmir. Çünki soyuq su yeməkdəki yağları qatılaşdırır və həzmi çətinləşdirir. Yemək zamanı otaq temperaturunda olan su, yaxud çay içmək tövsiyə olunur. Səhərlər acqarına soyuq deyil, 1 stəkan ılıq su içmənin metabolizmin sürətini artırdığı da düşünülməkdədir. Eyni zamanda, soyuq su miqren ağrılarını artırır. Buna görə miqren xəstələrinin soyuq sudan uzaq durmaları tövsiyə edilir”.

Qış aylarında su içə bilməyənlərin bu vərdişi necə formalaşdırmaqlarına gəlincə, Ş.Yadigarova bildirdi ki, hər kəs bunu yarada bilər: “Vərdiş formalaşdırmaq üçün davamlı gündəlik 2 litr maye qəbulunu axsatmamalıyıq. Davamlı içdikcə, artıq bədən də bunu sizdən istəyəcək. Amma bir gün içib, bir neçə gün içmədikcə, vərdiş yaranmır. Hava da soyuyan kimi su istəyi azalanda, su içmək yadınıza düşmür”.

*Yeganə BAYRAMOVA*



## “Real Madrid” “Monako”nu darmadağın edib, “İnter” məğlub olub



UEFA Çempionlar Liqasının əsas mərhələsində VII tura start verilib. AZƏRTAC xəbər verir ki, ilk oyun gündə 9 matç keçirilib. İspaniyanın “Real Madrid” komandası Çempionlar Liqasının yeddinci turunda “Monako”nu 6-1 hesabı ilə darmadağın edib. Digər görüşlərdə Londonun “Arsenal” klubu səfərdə “İnter”i 3:1 hesabı ilə məğlub edib. London təmsilçisinin qollarını Qabriel Jezus (2) və Viktor Qyökereş vurub. Bu nəticə “Arsenal” üçün Çempionlar Liqasında ardıcıl 7-ci qələbə olub və klub tarixində yeni rekord kimi qeydə alınıb. “Mançester Siti” isə Norveçdə “Budyo Qlimt”ə uduzub - 1:3. Belçikanın “Brügge” komandası Qazaxıstanda “Kayrat”a 4:1 hesabı ilə qalib gəlib.

## Əliyar Ağayev Avropa Liqasının oyununa təyinat alıb



Azərbaycanın FIFA referisi Əliyar Ağayev UEFA-dan yeni təyinat alıb. AZƏRTAC xəbər verir ki, o, UEFA Avropa Liqasının əsas mərhələsində yanvarın 22-də İsveçrədə “Yanq Boyz” və Fransanın “Lion” komandaları arasında keçiriləcək matçın baş hakimi olacaq. Ə.Ağayevə bu görüşdə Zeynal Zeynalov və Akif Əmirəli kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Tural Qurbanov yerinə yetirəcək.

## “Sportinq” PSJ-nin 12 illik seriyasını bitirib



Lissabonun “Sportinq” komandası UEFA Çempionlar Liqasının ümumi mərhələsinin VII turunda sensasiyaya imza atıb. Portuqaliya çempionu doğma meydanda PSJ-ni 2:1 hesabı ilə məğlub edib. “Şirlər”in heyətində Luis Suares 74-cü və 90-cı dəqiqələrdə fərqlənərək qələbənin memarı olub. Paris təmsilçisinin yeganə qolunu isə 79-cu dəqiqədə Xviça Kvaratsxeliya vurub. “Opta”nın məlumatına görə, bu nəticə PSJ üçün tarixi məğlubiyyət kimi qeydə alınıb. Belə ki, Fransa klubu 2013-cü ilin dekabrından bəri ilk dəfə Avropanın TOP-5 liqasına daxil olmayan bir komandaya Çempionlar Liqasında uduzub. Həmin vaxt parislilər digər Portuqaliya təmsilçisi “Benfika”ya eyni hesabla (1:2) məğlub olmuşdular.

Qeyd edək ki, PSJ-nin Çempionlar Liqasındakı 32 oyunluq məğlubiyyətsiz seriyası bu görüşlə başa çatıb. Son turun öncəsində həm “Sportinq”, həm də PSJ 13 xalla turnir cədvəlində eyni göstəriciyə malikdir.

## “Beşiktaş” Rafa Silvanı “Benfika”ya satıb

Türkiyənin “Beşiktaş” komandasının futbolçusu Rafa Silva “Benfika” ilə anlaşıb. AZƏRTAC xəbər verir ki, 32 yaşlı portuqaliyalı oyunçu tibbi müayinədən keçmək üçün sabah Lissabona gedəcək. Rafa Silva 2024-cü ilin yayında “Beşiktaş”a “Benfika”dan keçmişdi. O, bu mövsüm İstanbul təmsilçisinin heyətində 16 oyunda 5 qol və 3 məhsuldar ötürmə ilə yadda qalıb.



## İtaliya polisi 2 kluba cəza verib

İtaliyanın Daxili İşlər Nazirliyi “Roma” və “Fiorentina” klublarını cəzalandırıb.

Apasport.az xəbər verir ki, qurum yanvarın 18-də komandaların azarkeşlərinin Bolonya yaxınlığında bir-biri ilə mübahisə etməsi və ixtişaş yaratması səbəbindən klubların fanatlarına səfər oyununa getməklə bağlı qadağa qoyub. İtaliya A Seriyası rəhbərliyi qərarı dəstəkləyib. Çempionatda mövsümün sonuna kimi “Roma” və “Fiorentina” azarkeşləri səfər matçlarında komandalarını dəstəkləyə bilməyəcək.



## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Mahir Abbasəliyevə atası
**ZİYAD ABBASƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4590**
**Sifariş: 98**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova